# HƏR ŞEYDƏ XEYİR GÖRMƏK

...Bəlkə də xoşlanmadığınız bir şey sizin üçün xeyirli, xoşlandığınız bir şey isə sizin üçün zərərlidir. Allah bilir, ancaq siz bilməzsiniz. (Bəqərə surəsi, 216)

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- Giriş
- Hər şeyi xeyirə yozmaq
- Cahil cəmiyyətin hadisələrə baxışı
- Xeyirləri görməyin yolları
- Möminlər üçün hər hadisədə xeyir vardır
- Hadisələrdəki xeyirləri görməyə mane olan səbəblər
- Peyğəmbərlərin və möminlərin həyatından nümunələr
- Allahın inananlara sözü və köməyi
- Nəticə
- Əlavə hissə: Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi

mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini ona rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

# GİRİŞ

Keçmişə baxıb bu günə qədər yaşadıqlarınızı qısaca gözdən keçirsəniz, on illərə sığan hadisələrin, əslində, dəqiqələri keçmədiyini görərsiniz. Bir zamanlar çox önəmli olduğunu düşündüyünüz, bəzən həyəcanla, bəzən narahatlıqla, bəzən də maraqla gözlədiyiniz bütün hadisələr sizin üçün artıq xatirə olmuşdur. Bütün bunlardan dünyəvi mənada geriyə qalan yalnız yaddaşınızdakı məlumatlardır. Ancaq bütün bu zaman ərzində sərf etdiyiniz hər söz, göstərdiyiniz hər hərəkət, ağlınızdan keçirdiyiniz hər düşüncə Allah qatında saxlanmış vəziyyətdədir.

Hər insanın mütləq qarşılaşacağı ölüm həqiqəti ilə birlikdə bu məlumatlar qarşınıza qoyulacaqdır. Sizin yaddaşınızda artıq dəqiqələrlə ifadə etdiyiniz ömrünüz Allah qatında sizə anbaan, dəqiqəbədəqiqə, tək bir saniyəsi belə əskik olmadan təqdim olunacaq.

Əgər ömrünüzü Allahın həyatınızdakı mütləq hakimiyyətinin və hikmətli xəlqinin fərqində olaraq keçirmişsinizsə və həmçinin qarşınıza çıxan bütün hadisələri xeyirə yozub Allahın qədərinizi ən xeyirli şəkildə yaratdığının şüuruna varmışsınızsa, bilin ki, aqibət sizin üçün xeyirli olacaqdır.

Çünki ölüm ilə birlikdə insanın qarşılaşacağı sadəcə iki ehtimal vardır: Əgər insan ömrünü Allahın razı olduğu əxlaqı yaşayaraq keçirmişsə, sonsuz qurtuluş ilə; əksinə olduqda isə sonsuz əzab ilə qarşılaşacaqdır. Allahın razı olduğu əxlaq isə, hər şeyin Ondan gəldiyini bilməli, hər vəziyyətdə Ona şükür etməli və hər hadisədə xeyir olduğuna iman etməkdir.

İnsanın yaşadığı bütün hadisələrdən razı olması, hər hadisədə xeyir olduğuna iman etməsi və hər an Allaha şükür etməsi çox asandır. Bu, Allahın böyüklüyünü və üstünlüyünü qavramağın insana çatdırılan qəti həqiqətdir. Bunun üçün insanın yaşadığı dünyanı və rastlaşdığı hər şeyi yaradan Rəbbimizi tanıması və Onu gərəyi kimi təqdir etməsi kifayətdir. İnsanın dünyaya gəldiyi andan etibarən qarşılaşdığı hər hadisəni, eşitdiyi hər sözü yaradan uca Allahdır. Allah sonsuz güc, ağıl, ədalət və sonsuz hikmət sahibidir.

Quranda **"Biz, həqiqətən də, hər şeyi tale ilə yaratdıq"** (Qəmər surəsi, 49) ayəsi ilə bildirildiyi kimi, Allah hər şeyi müəyyən plan və hikmətlə yaradır. Allahın sonsuz güc və üstünlüyünə qarşı insan son dərəcə aciz varlıqdır.

Həyatda qalmaq üçün Allahın ona imkan və nemət verməsinə möhtacdır. Ağlı və düşüncəsi ancaq Allahın ona öyrətdiyi şeyləri qavramağa kifayət edir.

Bu vəziyyətdə insan Allahın sonsuz ağlına və hikmətlərlə dolu xilqətinə təslim olmağa möhtacdır. Allahın bütün kainatın və bütün varlıqların hakimi olduğunu bilməli; onun görüb-bilmədiyi hadisələri Allahın görüb-bildiyini, eşitmədiyi səsləri Onun eşitdiyini, keçmiş və gələcəkdən xəbəri olmadığı şeyləri Rəbbimizin bildiyini düşünməli və beləliklə, Allahın hər hadisəni ən hikmətli və ən xeyirli şəkildə yaratdığını dərk etməlidir.

Bu həqiqətə iman etmək onun həyatının hər anına şükür etməsinə vəsilə olar və ona üstün əxlaq qazandırar. Başqa şəkildə ifadə etsək, insan bu imanla gördüyü hər görüntüyə, yaşadığı hər hadisəyə, qısaca, həyatın hər anına xeyirlə baxar və beləcə, həyatı ən doğru şəkildə anlayar. Bununla yanaşı, bir ayədə **"Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun"** (İnsan surəsi, 3) hökmü ilə xəbər verildiyi kimi, doğrunu seçməklə xeyirli nəticəyə çatar və Allahın izni ilə sonsuz Cənnət həyatına qovuşmağı ümid edər.

Bu kitabın məqsədi insanlara hər an və hər hadisəni xeyirə yozmaqla həyatın gözəlliyini göstərmək, taleyin hər saniyəsinə xeyirlə baxmağın insana dünya və axirətdə verəcəyi nemətləri xatırlatmaqdır. Eyni şəkildə, insanın xeyirləri görməsinə mane olan pərdələri götürmək, yanlış həyat tərzindən xilas olmasına kömək etməkdir.

Bundan başqa, kitabda yazılanlar insanları hadisələrə xeyirlə baxmağı və çətinliklərə səbir etməyi təşviq edir. Həmçinin talenin nöqsansız yaradıldığını xatırladıb bütün inananları Allahın sonsuz ağlına itaət etməyin sevincini yaşamağa çağırır.

# HƏR ŞEYİ XEYİRƏ YOZMAQ

Hadisələri xeyirə yozmaq məsələsi cəmiyyətin böyük əksəriyyətinə məlumdur. Bir çox insan gündəlik həyatında tez-tez “bir xeyir var”, ya da “inşaAllah, xeyirdir” kimi sözlərdən istifadə edirlər. Ancaq bu, ümumiyyətlə, ya vərdişdən, ya da adət-ənənədən qaynaqlanır. Yoxsa bu insanlar xeyirə yozmanın həqiqi mənada nə ifadə etdiyinin, ya da bu anlayışın gündəlik həyata necə daşıyacağını anlamırlar. İnsanın yaxşı və yaxud pis kimi görünən hadisələri xeyirə yozması onun Allaha olan səmimi imanından qaynaqlanan əxlaqıdır və imanın verdiyi həyat şəklidir. Bu həqiqəti dərk etmək insana hüzur verir və dünya və axirətdə bütün nemətlərin qapısını açır.

Gün ərzində möminin heç bir şeyə narahat olmaması onun imanı doğru anladığını göstərir. Hadisələrə xeyirlə baxmamaq, narahat və ümidsiz olmaq, hüznə düşüb romantik davranmaq isə imanın şübhəli olmasının əlamətləridir. Bu şübhə dərhal aradan qaldırılmalı, iman sevinci ilə yaşamaq həyat tərzinə çevrilməlidir. Allaha iman edən şəxs tərs kimi görünən hadisə ilə qarşılaşanda bunun mütləq ən xeyirli olduğunu bilməlidir.

“Çatışmazlıq”, “tərslik”, “kaş ki” kimi sözlərdən isə ancaq dərs almaq, ibrət çıxarmaq məqsədi ilə istifadə etməlidir. Yəni “bu hadisə hikmətli və xeyirlidir, lakin bir daha eyni səhvi etməməliyəm, indi öyrəndiyim şəkildə doğrunu etməliyəm” şəklində düşünməlidir. Təkrar eyni çətinliklə qarşılaşdıqda və ya eyni səhvi etdikdə yenə bunun xeyir və hikmətlə yaradıldığını ağlından çıxarmamalı və: “Bir daha doğrusunu etməliyəm”, -deyə düşünməlidir. Hətta eyni hadisə dəfələrlə təkrarlanarsa, yenə də müsəlman üçün bu vəziyyətin xeyir olduğunu bilməlidir; çünki bu, Allahın qanunudur və Allahın qanunu əsla dəyişməz.

Bir insanın nəfsinin rahat olması Allahdan gələn xeyir və hikmətin kəsilmədən davam etdiyini bilməklə mümkündür. Bu həqiqəti qavramaq dünyada mömin üçün böyük nemətdir. Din əxlaqından uzaq, inkarçı insan daima əzab çəkir və hər hadisəni öz əleyhinə olduğunu düşünür. Mömin isə hadisələrin hikmət və xeyir yönlərini görür və bu səbəbdən sevincli olur. Buna görə, orta yol tutmaq, hadisələri həm xeyirə, həm şərə yozub narahatlıq duymaq axirətdə mömini utandıra bilər.

Bu qədər açıq həqiqəti görüb vicdanla qəbul etməmək axirətdə və dünyada əzab çəkməyə səbəb olar. Bilmək lazımdır ki, Allah taleni qüsursuz

yaratmışdır. Milyonlarla hadisədən ibarət bu taledə xeyirlə baxan insan üçün yalnız gözəllik və hikmət vardır. İmanlı mömin iradəsi və ağlı ilə gün ərzində heç bir hadisədə şeytanın tələsinə düşmür. Hadisənin şəkli, günü, yeri nə olursa-olsun, xeyirli olduğunu əsla unutmur. Özü həmin vaxt bu xeyiri görməyə bilər, əsası odur ki, hər şeyin xeyirlə yaradıldığına qəti olaraq inanır.

İnsan bəzən tələsdiyinə görə hadisələrin xeyir yönünü tez görmək istəyir. Əgər həmin an bunu görə bilmirsə, ona zərər verəcək şeylərə qarşı israrlı və inadkar münasibət göstərə bilər. Quranda insanın bu tələskənliyi belə bildirilmişdir:

**İnsan (özü üçün) xeyir istədiyi kimi, şər də istəyər. Axı insan çox tələskəndir. (İsra surəsi, 11)**

Halbuki insan doğru və yaxşı bildiyi şeylərdə israr etməməli, bunları əldə etmək üçün tələsib həvəsə düşməməli, Allahın yaratdığı hadisələrdəki hikmət və xeyiri görmək üçün çalışmalıdır. Məsələn, bir insan maddi imkanlarının yaxşılaşmasını çox istəyib bunun üçün əmək sərf edə bilər. Lakin çox cəhd etsə də, bunu əldə etməyə bilər. Bu vəziyyətin öz əleyhinə olduğunu düşünən insan çox yanılır. Əlbəttə, hər kəs Allah rizası üçün istifadə məqsədilə mal-mülk baxımından zəngin olmaq üçün dua edə bilər.

Ancaq bu, gecikirsə və ya heç olmursa, bunda böyük xeyir vardır. Bəlkə də müəyyən kamilliyə çatmadan əldə edəcəyi zənginlik insanı Allahın yolundan azdırıb şeytanın hiyləsinə sala bilər. Belə bir hadisənin arxasında insanın yaxında görəcəyi və ya ancaq axirətdə anlayacağı buna bənzər daha bir çox xeyir ola bilər. Başqa bir misal desək, bir biznesmen iş həyatında böyük nailiyyət qazanacağı önəmli toplantını qaçıra bilər. Ola bilər ki, o toplantıya getdikdə yolda qəza keçirər.

Əlbəttə, bunlar ümumi misallardır və hər kəs həyatda belə hadisə ilə qarşılaşmışdır. İlk baxışda tərs kimi görünən hadisələrin xeyrini görmüşdür. Amma bunu unutmaq olmaz ki, insan tərs görünən hadisələrin xeyir yönünü hələ anlamaya bilər. Çünki daha əvvəl də bildirdiyimiz kimi, insanın hadisənin xeyir yönünü qısa müddətdə görəcəyi şərti yoxdur. İnsan hadisənin xeyrini illər sonra da öyrənə bilər və ya heç bilməyə də bilər. Bəlkə də Allah, qarşılaşdığı çətin vəziyyətin xeyrini ona axirətdə göstərəcəkdir. Nəticə olaraq, təvəkküllü

və taleyə təslim olan insan hər hadisəni hikmətini bilib-bilməsə də, xeyirlə düşünməli və hər şeydən razı olmalıdır.

Lakin bunu xüsusilə vurğulamaq lazımdır ki, xeyirlə baxmaq hadisələri görməzlikdən gəlib vecinə almamaq və ya nikbin davranmaq demək deyil. Tam əksinə, hər insan qarşılaşdığı hadisələrdə əlindən gələn bütün tədbirləri almağa və hər yolu sınamağa məsuliyyət daşıyır. Hadisənin bu yönünə diqqət etmək lazımdır, çünki cahil əxlaqında fərqli anlayış formalaşdıran insanlar da vardır. Məsələn, cahil cəmiyyətində hadisələrə biganə və son dərəcə vecsiz yanaşan müəyyən kütlə vardır ki, bunlar hər hadisəni ifrat dərəcədə nikbinliklə dəyərləndirirlər.

Bu insanlar hadisələrə qarşı həm vecsiz yanaşdıqlarından, həm də çıxış yolu tapmağın əvəzinə uşaq kimi saf davrandıqlarından ağıllı hərəkət etmirlər. Məsələn, ona ciddi xəstəlik diaqnozu qoyulan bir insan "fikir vermə, heç nə olmaz" deyə düşünərsə, xəstəliyi daha da şiddətlənəcəkdir. Yaxud da evi soyulduğu halda, heç bir tədbir görməyən insan öz əli ilə yeni oğrulara imkan yaratmış olacaq.

Şübhəsiz, belə saf davranmağın bu kitabda bəhs edilən xeyirə yozmaq və təvəkküllü olmaq anlayışları ilə heç bir əlaqəsi yoxdur. Belə hərəkətlər açıq şəkildə vecsiz davranmaqdır. Bu cür düşünənlərdən fərqli olaraq, möminlər hər hadisədə əllərindən gələni edib həm də feili cəhd edirlər; yəni bir növ feili dua etmiş olurlar. Lakin cəhd edərkən hər işin Allahın dilədiyi şəkildə nəticələnəcəyini heç vaxt unutmurlar.

Quranda bu həqiqəti dərk edən peyğəmbərlərin və saleh möminlərin həyatından nümunələr verilmiş, onların çətinlik və təzyiq zamanı təvəkküllü davranmaları insanlara nümunə göstərilmişdir. Bu nümunələrdən biri hz. Hudun inkarçı qövmünün təhdidlərinə qarşı Allaha olan itaətini və təvəkküllünü göstərən verdiyi cavabdır. Ayələrdə belə bildirilir:

**Onlar dedilər: "Ey Hud! Sən bizə açıq-aşkar bir möcüzə gətirmədin. Biz sənin sözünlə ilahlarımızı tərk edən və sənə inanan deyilik! Biz ancaq bunu deyə bilərik ki, ilahlarımızdan biri səni yaman pis çarpıb". Hud dedi: "Mən Allahı şahid tuturam və siz də şahid olun ki, mən sizin qoşduğunuz şəriklərdən uzağam. Allahdan başqa (sitayiş etdiklərinizdən uzağam)! Elə isə hamılıqla mənə qarşı hiylə qurun, sonra mənə**

**heç möhlət də verməyin! Şübhəsiz, mənim də, sizin də Rəbbiniz olan Allaha təvəkkül etmişəm. Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim doğru yoldadır. Əgər üz çevirsəniz, bilin ki, mənimlə göndəriləni sizə təbliğ etdim. Rəbbim (istəsə,) sizin yerinizə başqa bir qövm gətirər və siz Ona heç bir zərər verə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyə nəzarət edir".**

**(Hud surəsi, 53-57)**

## "Şər zənn etdiyimiz xeyir, xeyir zənn etdiyimiz şər ola bilər"

**Adnan Oktar**: Bəzi insanlar, hadisələr qarşısında çox sevinir. Halbuki onun üçün şər olur, amma bilmir. Məsələn, oğurluq bir əşya tapır, götürüb sevinir ona. Onu alıb istifadə edir. Onu özü üçün xeyir zənn edir. Halbuki o bir şərdir. Amma məsələn fərz edək işindən atılır və ya yolda gedərkən əlində yemək qabı, ayağı ilişir, qırılır, qab tökülür. O yeməkdə bəlkə zəhərli bir şey vardı və yaxud bədəninə zərər verəcəkdi və ya Allah onu düşündürmək üçün belə edə bilər. Bir çox hikməti ola bilər. Orada ona mütləq xeyir gözü ilə baxmalıdır.

Şər gözü ilə baxdıqda o ibadət olmaz. Çünki Allahın çox incə detallı sənəti vardır. Məsələn, Allah Hz. Mehdi (ə.s)-ı yaradır. Hz. Mehdi (ə.s), o dövrün, ən çətin hadisələri ilə qarşı-qarşıya gətirir. Məsələn həbsə saldırır, insanlara böhtan atdırır, tələbələrinə də zülm edilməsinə səbəb olur. Min bir cür əzabın içindən keçirir. Hz. Mehdi (ə.s) nə deyir? Bunda da bir səbir var. Bunda da bir xeyir var. Bunda da bir gözəllik var deyir.

Buna səbir etmək lazım, buna xeyir gözü ilə baxmaq lazım. "Allah məni sınayır" deyir. Allaha həmd olsun deyir Hz. Mehdi (ə.s). Amma şeytanı düşünən də, Allah verməsin, "mən Allah üçün nə qədər yaxşılıq edirəm, məsələn namaz qılıram, oruc tuturam amma Allah mənə dərd verir, bəla verir" deyir və namazını, niyazını buraxır. O da itirənlərdən olmuş olur. Allahın imtahan olacaqsınız dediyi elə budur. Yəni Allah sınaqdan keçirir.

Onun üçün şər olduğu zənn edilən şeylərdə xeyir olduğunu insan bilməlidir. Müsəlman üçün hər şərdə mütləq bir xeyir vardır. Amma imansız olan bir insanın da hər xeyir gördüyü şeydə bir şər olar. Hamısı onun üçün bir şərdir. Məsələn uşağı olar, onun üçün bir şərdir, uşaqları başına bəla olar. Bütün xoşbəxtliyini alar. Məsələn qadın hamilə olar. Bütün bədəni pozular, xəstələnər. Onun üçün bir şər olar. Məsələn varlı olar, mədə xəstəsi olar, o zənginliyi, malı qoruyacağam deyə, əsəbdən saçları tökülür.

Sapsarı olur, əli ayağı boşalır, sinir xəstəsi olur. O mal, onun başına bəla olmuş olur. Və ya çox pul qazanırlar, çox yemək yeyirlər, bütün ailə xolestroldən xəstə olur, özü də xəstə olur, zob xəstəliyinə tutulur. Bir çox xəstəliyə səbəb olur. O biri kasıb insan da yeyə bilmir, tərəvəzlə, ucuz yeməklə bəslənir amma qıpqırmızı çox sağlam olur. Onun da məsələn qanında heç xolestrol olmamış olur amma o, özü üçün şər zənn edir bunu. Halbuki xeyir vardır.

Allahın o qədər detallı sənəti vardır ki dünyada, insanlar bunu saymağa çalışsa bitirmələri mümkün deyil. Onsuz da Allah deyir ayədə, "**Bütün dənizlər mürəkkəb olsa**" deyir, "**bütün ağaclar da qələm olsa**," deyir, şeytandan Allaha sığınaram, "**dənizlər tükənər**" deyir, "**Allahın sözü tükənməz**" deyir Allah.

Bu sirri bilmədikləri üçün insanlar çətinlik çəkirlər, yəni bir səbəbi də bu olur. Buna görə də, insanların bir çoxu sinir xəstəsi olurlar, kokainə alışırlar, narkotikə alışırlar. Sulu gözdür mənim gördüyüm insanlar, toxunsalar ağlayarlar. Məsələn romanlarda görürəm, filmlərdə də görürəm, inşaAllah, amma bizim uşaqlar möhkəmdir bu mövzuda, maşaAllah. (Adnan Oktarın 21 noyabr 2009-cu il tarixli "Kral Karadeniz TV" və "Kanal Urfa TV" müsahibəsindən.)

# CAHİL CƏMİYYƏTİN HADİSƏLƏRƏ BAXIŞ FORMASI

Bəzi insanlar başlarına gələn hadisələri öz məntiqləri əsasında yaxşı və ya pis şəklində müəyyən kateqoriyalara ayırırlar. Bunu edərkən öz vərdişlərini və ictimai adətləri önə sürərlər. Reaksiyaları hadisələrin şiddət və formasına görə dəyişir, lakin nəticə etibarilə cəmiyyətin təyin etdiyi qəlibdən kənara çıxmırlar.

Hər insanın uşaqlıqdan etibarən gələcəklə bağlı bir çox planı olur. Lakin həyat həmişə insanların düşündüyü və ya planlaşdırdığı şəkildə inkişaf etmir. Zamanla hər insanın başına gözlənilməz olaylar gəlir. Bəzən hər şey insanın tam istədiyi şəkildə həyata keçir, bəzən də zahirən tərs görünən bir çox hadisə baş verir. Çox sağlam birisi bir anda ölümcül xəstəliyə tutulur və ya qəza keçirib şikəst olur. Yaxud da çox varlı birisi bir anda bütün malını itirir.

Ümumiyyətlə, insanlar həyatı boyu rastlaşdığı bu hadisələrə fərqli reaksiyalar verirlər. İşləri qaydasında getdiyi və mənfəətlərinə zərər gəlmədiyi müddət ərzində müsbət reaksiya verir, ancaq gözlənilməz hadisələrdə narazı qalıb üsyan edirlər. Hadisələrin əhəmiyyətinə və nəticəsinə görə bu üsyankar davranışları daha da şiddətlənir.

Əsasən, bu ortaq xüsusiyyəti cahil cəmiyyətlərin hamısında görmək mümkündür. Lakin bu insanların bir hissəsi narazı qaldığı bu hadisələrdə "bir xeyir vardır" və ya "xeyirdir, inşaAllah" deməyi unutmurlar. Bu sözlər (daha əvvəl də qeyd etdiyimiz kimi) vərdişdən, yaxud da adət-ənənədən qaynaqlanır. Yoxsa bir çox insan sözdə deyildiyi kimi, başına gələn hadisələrdə xeyir axtarmır.

Bəziləri də zərərsiz və ya əhəmiyyətsiz gördüyü hadisələrə: "Bir xeyir var", deyərkən, önəmli bildiyi və mənfəətinə ciddi zərər vuracağını düşündüyü hadisələrə qarşı heç bir xeyir söz işlətmirlər. Məsələn, avtobusa çatmayan və ya maşını xarab olan birisi: "Bir xeyir var", deyib ciddiyə almır. Ancaq bundan dolayı müdiri onu təhqir edəcəksə və ya işindən qovulacaqsa, bu vəziyyətdə gileylənməyə başlayır. Yaxud da ucuz bir saatı itəndə eyni sözü işlədən insan qızıl üzüyü itəndə özünü itirir. İnsanın xeyirlə baxdığı və ya səbir etdiyi kiçik hadisələr vardır, amma böyük hadisələrdə hər cür neqativ davranışı özünün təbii haqqı kimi görür.

Bəziləri də xeyirlə baxmaqdan yalnız təsəlli məqsədilə istifadə edir. Yoxsa insanlar hadisələri xeyirlə dəyərləndirməyin həqiqətdə nə məna ifadə etdiyini anlamırlar. Bunun sadəcə sıxıntıya düşən və ya zərər çəkən dostların bir-birinə təsəlli vermək şəkli olduğuna inanırlar. Məsələn, iflas edən tanışına, yaxud sinifdə qalan dostuna onu sakitləşdirmək üçün "eybi yoxdur, bir xeyir var" və ya "olmalı idi, xeyirlə düşünmək lazımdır" kimi sözlər deyirlər. Eyni hadisə özlərinin başına gələndə heç bir xeyir söz işlətmirlər. Bu vəziyyət işlətdikləri sözün mənasından tamamilə xəbərsiz olduqlarını açıq şəkildə göstərir.

Belə insanların başına gələn və pis kimi görünən bütün hadisələrdə bir xeyirin olduğunu düşünməmələri iman zəifliyindən qaynaqlanır. İnsanın həyatı boyu qarşılaşdığı hər hadisəni Allahın yaratdığını, hər işin müəyyən tale ilə baş verdiyini və dünya həyatının imtahan yeri olduğunu anlamaması xeyirlə baxmasına mane olur.

Buna görə də, növbəti səhifələrdə baş verən hadisələrdə mütləq bir xeyirin olduğuna inanmaq üçün və bu xeyirləri görmək üçün başa düşülməsi gərəkən bəzi əhəmiyyətli həqiqətlərə toxunacağıq.

# XEYİRLƏRİ GÖRƏ BİLMƏYİN YOLLARI

## Hər hadisəni, hər detalı Allahın yaratdığını bilmək...

İnsanların bir çoxu xeyirli bildiyi hadisələrlə xoşbəxt olduğu halda, pis görünən hadisələrə görə kədərlənərlər. Halbuki iman edənlər üçün sıxıntıya düşmək çox yersizdir. Allah Quranda hər hadisəni saleh qullarının xeyirinə yaratdığını müjdə vermiş, onlar üçün heç bir zaman kədər və sıxıntı olmayacağını xəbər vermişdir.

Quranda bildirilən bu həqiqətə inanan insan dünya həyatında bütün hadisələr qarşısında razı olmağı və bunlardakı gözəllik və hikmətləri görməyi bacarır.

Bəzi insanlar isə illərlə yaşadığı bu dünyanın niyə və necə var olduğunu heç düşünmədən həyatlarına davam edirlər. Əlbəttə, vicdanən bütün gözəlliklərin və mükəmməl nizamın Yaradıcısının olduğunu bilirlər. Lakin dünya həyatını sevdiklərindən dolayı, yaxud qarşılaşacaqları həqiqətləri qəbul etmək istəmədiklərinə görə Allahın varlığını düşünməkdən qaçırlar. Gündəlik həyatda hadisələrin hamısını Allahın plan və hikmətlə yaratdığını görməzdən gəlir, bunları şans və ya təsadüf kimi xəyali düşüncələrlə açıqlamağa çalışırlar. Bu da onların hadisələrə xeyirlə baxmasını və hikmətli nəticələr çıxarmasını əngəlləyir.

Bəziləri də Allahın varlığını bilir, bütün kainatı və insanı Allahın yaratdığını dərk edirlər. Yağışı, ildırımı və ya günəşin çıxmasını Allahın yaratdığını qəbul edirlər. Lakin gündəlik hadisələrin Allahdan asılı olmadan baş verdiyinə inanırlar. Halbuki evə girən oğrunu, ayağa dəyən daşı, yağan yağışı, məhsul verən ağacı, yaxşı və ya pis gedən işləri, unudulub yanan yeməyi də yaradan Allahdır.

Bu mövzuda insan daha çox düşünməlidir. Çünki hər hadisə Allahın bilgisi daxilində baş verir. Hər hadisə çox incə planla Allahın sonsuz ağıl və hikməti ilə yaradılmışdır. İnsanın ayağına sıçrayan palçığı, partlayan təkəri, dəridə əmələ gələn ləkəni, hər bir xəstəliyi, qaydasında görünməyən işi, yazılan hər yazını və deyilən hər bir sözü Allah müəyyən planla yaradır.

İnsanın dünyaya göz açdığı andan etibarən qarşılaşdığı pis, yaxud yaxşı görünən bütün hadisələri Allah yaradır. Həyatı bir bütün olaraq yer üzünün tək hakimi olan Allah idarə edir. Allah qüsursuz, mükəmməl, hikmətli və ən gözəl şəkildə yaradandır. Bu, uca Allahın yaratdığı taledir. Allahın taledə yaratdığı hadisələri bölüb bir hissəsinə yaxşı, digər hissəsinə pis baxmaq yanlışdır. İnsan mükəmməlliyi görüb təqdir etməli və Allahın ən qüsursuz nəticələri yaradacağını bilərək hər hadisəni xeyirə yozmalıdır. Çünki Allaha iman edən və imanı ilə hər şeyi xeyirə yozan insan dünya və axirətdə gözəlliklərlə qarşılaşacaq.

Yuxarıda bəhs etdiyimiz bu böyük həqiqətə Quranda bir çox ayədə diqqət çəkilmişdir. Buna görə, tale həqiqətini unutmaq böyük xətadır. Allahın yaratdığı tale təkdir və eynisi ilə hər şey reallaşar. Tale deyildikdə bəzilərinin ağlına, adətən, "fəlakətə təsəlli" kimi yanlış düşüncə gəlir. İman edənlər isə taleni ən doğru şəkildə qavrayır və talenin onlar üçün ən xeyirlisi olduğunu bilirlər.

Tale müsəlman üçün tamamilə qüsursuz hazırlanmış, hikmət və xeyirlərlə dolu Cənnət hazırlığıdır. Möminin dünyada qarşılaşdığı hər bir çətinlik Cənnətdə sonsuzadək alacağı zövqün, sevincin və hüzurun qaynağıdır. "**Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir**" (İnşirah surəsi, 5) ayəsi də bir mənada buna işarə edir. Möminin səbir və cəsarətinə görə sonsuza qədər nemətlərlə mükafatlandırılması taledə yazılıdır.

Bir mömin gündəlik həyatda bəzi hadisələrə üzülüb narahatlıq duya bilər. Bunun səbəbi həmin an qarşısına çıxan hadisələrin taledə olduğunu və hər şeyi Allahın yaratdığını unutmasıdır. Ona: "**Bu hadisəni Allah xeyirlə yaratdı**", -deyildikdə həmin anda qafil deyilsə, həqiqətləri tez görər və rahat olar. Buna görə də, müsəlman anbaan hər hadisənin taledə olduğunu daim xatırlamalı və xatırlatmalıdır.

Allahın əzəldə xeyir və hikmətlə hazırladığı hadisələrə təvəkkül etməli, gözəlliklərini görüb hikmətini anlamağa çalışmalıdır. Hər insan Allahın diləməsi ilə bu həqiqətləri anlaya bilər. Bəlkə də hadisələrdəki saysız xeyir və hikmətin hamısı ilk anda müəyyən olmaya bilər. Amma bir hadisə baş veribsə, bilmək lazımdır ki, o, onsuz da müsəlman üçün Allahın yaratdığı xeyir və hikmətlə birlikdə reallaşmışdır.

## Dünyadakı canlı-cansız hər varlığın tale ilə yaradıldığını bilmək...

Tale Allahın keçmişdən gələcəyə kimi yaşanmış və yaşanacaq bütün hadisələri tək bir anda bilməsidir. Bu, Allahın hər varlıq və hadisə üzərindəki mütləq hakimiyyətini ifadə edir. İnsanlar hadisələri yaşadığı zaman öyrənirlər. Lakin Allah bütün bunları hələ baş verməmişdən qabaq da bilir. Allah üçün keçmiş, indiki və gələcək zaman birdir. Hamısı Allahın elmi və əhatəsi daxilindədir. Çünki bunların hamısını Rəbbimiz yaratmışdır.

"**Biz, həqiqətən də, hər şeyi bir tale ilə yaratdıq**" (Qəmər surəsi, 49) ayəsi ilə də bildirildiyi kimi, dünyadakı hər varlığın bir taleyi vardır. Bəzi insanlar talenin mükəmməlliyini və bunda Allahın sonsuz gücünün olduğunu düşünmürlər. Bəziləri də taleni sadəcə insanları maraqlandıran bir mövzu olaraq məhdudlaşdırırlar. Halbuki evdə gördüyünüz əşyaların, yoldakı daş parçalarının, meyvələri sallanan ağac budaqlarının, mağazada rəfdə qoyulan şüşə qabların, bir sözlə, canlı-cansız bütün varlıqların Allah qatında müəyyən olunmuş taleyi vardır.

Hər birinin taleyini sonsuz ağıl sahibi Allah müəyyən etmişdir. Kainatda meydana gələn böyük-kiçik hər hadisə bir hikmətlə reallaşır. Heç bir çiçək təsadüfən açmır və ya solmur. Həmçinin heç bir insan təsadüfən doğulmur, yaxud ölmür. Heç bir insan səhvən və ya təsadüfü şəkildə xəstələnmir. Əgər yaxşılıq və ya pisliklə qarşılaşırsa, bu, heç də təsadüfi və ya bəxtəbəxt deyildir. Hər birini insanın yaradılışı ilə birlikdə Allah xüsusi olaraq müəyyən etmişdir.

Allah Quranda "**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru yoxdur ki, açıq-aydın yazıda olmasın**" (Ənam surəsi, 59) ayəsi ilə torpağın və ya okeanların kilometrlərlə dərinliyində meydana gələn hadisələrdən tutmuş tək bir yarpağın düşməsinə qədər hər şeyin müəyyən tale ilə baş verdiyini bildirmişdir.

İnsanların çoxu yaşadığı talenin hər anını uca Allahın yaratdığından xəbərsizdirlər. Bəziləri də necə yaradıldığını, həyatı boyu qarşısına çıxan nemətlərin necə var olduğunu heç düşünmür. Bir çoxları da həyatı və ölümü Allahın yaratdığını, lakin həyatın axarının təsadüfi şəkildə inkişaf etdiyini düşünürlər. Halbuki Quranda "**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, yazıda olmasın.**

**Şübhəsiz ki, bu, Allah üçün çox asandır**” (Hədid surəsi, 22) ayəsi ilə baş verən hər hadisəni Allahın özəl hikmət və ağıl ilə planladığı bildirilir.

İnsanın bu önəmli həqiqəti anlaması son dərəcə əhəmiyyətlidir. Çünki dünyadakı hər varlığın taleyini sonsuz ağıl və bilgi sahibi olan Allah müəyyən edir. Dolayısilə, hər şey ən mükəmməl şəkildə planlanır və ən hikmətli şəkildə yaradılır. Bu həqiqəti görənlər pis kimi görünən vəziyyətlərdə də rahat olur. Çünki onlar Allahın saleh qulları üçün taleyi ən gözəl şəkildə yaratdığını bilir və Allahın gözəl gördüyü bir şeyə qarşı insanın gümansız olmasının qəflət olduğunu anlayırlar.

Bunun əksini düşünmək, yəni neqativ hallarla qarşılaşdıqda baş verənləri Allahın yaratmadığını, bir başqasının buna səbəb olduğunu zənn etmək insanın taleni anlamadığını göstərir. Neqativ görünən hər hadisə, əslində, bir “**tale dərsi**”dir. Hər şeyi mütləq hikmət və xeyirlə dəyərləndirmək lazımdır. Böyük, orta dərəcəli və ya əhəmiyyətsiz görünən hər hadisə taledə hikmətlə yaradılmışdır.

Bəzi insanlar tez-tez baş verən və istəmədikləri formada inkişaf edən hadisələrə tərs kimi baxırlar. Halbuki bunda da xeyir və hikmət vardır. İnsan bunları tərslik kimi görə bilər, halbuki o hadisələrin taledə o şəkildə reallaşması daha xeyirlidir.

Gün boyu insanları narahat edən və əsəbiləşdirən hadisələrin hikmət və xeyirlərini Allah bir anda göstərsə, insanın narahat olmasının səhv olduğunu başa düşər. İman edən insan bu xeyirlərə görə hüznə düşməz, tam əksinə, sevinib şad olar. Buna görə də insan taledə, yəni uca Allahın qüsursuz yaratmasının hikmətli xüsusiyyəti olan hadisələrdə həmişə xeyir və hikmət axtarmalı və bunu qavradığına görə sevinməlidir.

## Xeyir kimi görünən hadisələrdə şərin, şər kimi görünən hadisələrdə isə xeyirin ola biləcəyini düşünmək...

Əvvəlki səhifələrdə Allahın sonsuz ağıla sahib olduğundan və dünya həyatında baş verən hər hadisəni xüsusi plan içində xeyir və hikmətlə yaratdığından bəhs etdik. Burada Allahın yaratdığı hadisələrin hansında xeyir,

hansında şər olacağını yalnız Onun bildiyini anlamaq gərəkir. Çünki Allah sonsuz, insan isə məhdud ağıla sahibdir. İnsan hadisələrin ancaq zahiri yönünü görür və ancaq öz anlayışı ilə bunları dəyərləndirir. Məhdud düşüncəsi ilə bəzən xeyirli hadisəni pis, zərər verəcək hadisəni isə xeyirli zənn edir. Bu vəziyyətdə doğrunu bilmək üçün iman edən insan Allahın sonsuz ağıl və bilgisinə təslim olub hər hadisəyə xeyirlə baxmalıdır. Necə ki, Allah bir ayəsində insanlara belə buyurur:

**...Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bilmirsiniz. (Bəqərə surəsi, 216)**

Allahın bu ayədə bildirdiyi kimi, insanın xeyirli və gözəl olduğunu zənn etdiyi bir hadisə onun dünya və axirətdə ziyan çəkməsinə səbəb ola bilər. Yaxud da zərər toxunacağını düşünüb çəkindiyi hadisə insana gözəllik, bərəkət və hüzur gətirə bilər. Bütün bunların sirrini yalnız Allah bilir. İstər şər, istərsə də xeyir kimi görünən bütün hadisələr Allahın diləməsi ilə reallaşır.

Allah insan üçün nəyi diləyərsə, o olar. Quranda "**Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, bağışlayandır, rəhmlidir**" (Yunis surəsi, 107) ayəsi ilə bu həqiqət bildirilmişdir.

Dolayısilə, Rəbbimizdən bizə gələn hər hadisə xeyir kimi də, şər kimi də görünsə, əslində, bizim üçün xeyirlidir. Daha öncə bəhs etdiyimiz kimi, hadisələrin nəticəsini zaman və məkanla hüdudlu olan insan deyil, zaman və məkandan münəzzəh olan və bütün bunları, o cümlədən, insanları bir anda yaradan Allah təqdir edə bilər. (Ətraflı məlumat üçün baxın: "Zamansızlıq və tale həqiqəti", Harun Yəhya)

# MÖMİNLƏR ÜÇÜN HƏR HADİSƏDƏ XEYİR VARDIR

Hər insanın həyatında çətinlik kimi gördüyü vaxtlar olur. Quran əxlaqından uzaq insanların bir çoxu bu zamanları üzüntülü duyğularla keçirirlər. Belə mühitlərdə əsəbi və gərgin davranırlar. Bu reaksiyaların tək səbəbi isə kitabın əvvəlindən bu yana bəhs etdiyimiz kimi, onların dinin gətirdiyi gözəl əxlaqdan uzaq yaşamasıdır. Allaha və yaratdığı qüsursuz taleyə iman etmədikləri üçün hadisə və çətinliklərdə hikmət və xeyir görə bilmirlər. Onsuz da iman etmədikləri müddətdə keçən zaman onların əleyhinədir. Həmişə bunun sıxıntısı və gərginliyi ilə yaşayırlar.

Möminlər isə Allahın dünyada onlar üçün yaratdığı çətinliklərin imtahan olduğunu bilirlər. Bu imtahanın saleh müsəlmanlarla qəlblərində xəstəlik olan və iman etməyənlərin ayrılması üçün xüsusi yaradıldığını anlayırlar. Çünki Allah müsəlmanları mütləq imtahan edəcəyini və doğru olanlarla olmayanları bir-birindən ayırd edəcəyini Quranda belə vəd etmişdir:

**Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cəhd edənləri və səbir edənləri bəlli etmədən siz Cənnətə daxil olacaqsınız? (Ali İmran surəsi, 142)**

**Allah pisi yaxşıdan ayırmayınca möminləri sizin olduğunuz vəziyyətdə tərk edən deyildir...** (Ali İmran surəsi, 179)

Bu mövzu ilə əlaqədar olaraq Quranda Peyğəmbərimizin (s) dövründə yaşanan belə bir hadisə nümunə verilmişdir:

**İki ordunun qarşılaşdığı gündə başınıza gələn fəlakət də Allahın izni ilə oldu ki, möminləri ayırd etsin. Və münafiqləri onlardan fərqləndirsin... (Ali İmran surəsi, 166-167)**

Yuxarıdakı ayələr, əslində, bura kimi bəhs etdiyimiz mövzunu açıqlayır. Peyğəmbərimizin (s) dövründə müsəlmanlar çətin mühitlərlə qarşılaşmış, zahirən bir çox sıxıntıya düşmüşdülər. Zahirən möminlərin çətin mübarizədə olduqları görünür. Lakin ayələrdə də bildirildiyi kimi, bu hadisə də Allahın izni ilə baş vermiş və möminlərə zərər verməyə çalışan münafiqlərin ortaya çıxmasına vəsilə olmuşdur. Yəni sonu möminlər üçün (həmişə olduğu kimi) xeyirə çevrilmişdir.

Möminlər bunu bildiklərinə görə, belə vaxtlara Allaha bağlılıqlarını və səmimiyyətlərini göstərmək üçün fürsət kimi baxırlar. Dünyada həm çətinlik, həm də nemətlərlə imtahan olunduqlarını heç unutmurlar. Bu gözəl əxlaqa görə, Allah çətinliyi saleh qullarının lehinə çevirir.

Növbəti səhifələrdə insanların gündəlik həyatda qarşılaşdığı bəzi çətinliklərdən və dünya həyatına xas imtahanlardan bəhs ediləcək. Burda məqsəd inananlar üçün çətin görünən hadisələrdəki xeyirləri və səbir etməyin möminlərə gətirdiyi gözəllik və nemətləri xatırlatmaqdır.

## Mal-mülkdən azalma ilə imtahan

İnsanların bir çoxunun həyatda ən önəmli məqsədlərindən biri mal-mülk zənginliyinə sahib olmaqdır. Həyatda çox əhəmiyyətli sayılan bu hədəfə çatmaq üçün hər yolu sınayır, heç bir şeydən çəkinmirlər. İnsanların mal-mülkə verdiyi dəyər Quranda dünyanın bərbəzəyi və bunlara qarşı güclü istək kimi keçir. Ayələrdə belə buyurulur:

**Qadınlara, uşaqlara, qızıl-gümüş yığınlarına, yaxşı cins atlara, mal-qaraya və əkin sahələrinə qarşı nəfsani istəklər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının (müvəqqəti) mənfəətləridir. Ən gözəl dönüş yeri Allah dərgahındadır. (Ali İmran surəsi, 14)**

**Mal-mülk və oğullar dünya həyatının zinətidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid bağlamaq etibarilə daha xeyirlidir. (Kəhf surəsi, 46)**

Allah bir başqa ayədə din əxlaqından uzaq yaşayan insanlara "**mal-dövləti isə lap çox sevirsiniz**" (Fəcr surəsi, 20) şəklində bildirir. Bu ayədən aydın olduğu kimi, cahil cəmiyyəti mal-mülk sahibi olmağa çox həvəslidir. Çünki var-dövlət din əxlaqını əsas almayan cəmiyyətlər üçün üstünlüyü ifadə edən əhəmiyyətli xüsusiyyət sayılır. Bu yanlış modeldə malı olana hörmət edilir və dəyər verilir. İnsanlar istədiyi zənginliyi əldə etdikdə böyük güc qazandıqlarını düşünürlər. Bu baxımdan, hər kəs çoxlu var-dövlətə sahib olmağı istəyir.

Cahil insanlarının mal-mülkə bu qədər düşkün olması həyatı boyu qazandıqlarını itirmək qorxusunu da bərabərində gətirir. Bu yanlış məntiqə sahib olan bəzi insanlar var-dövləti müəyyən bir səbəbdən əlindən getdikdə ümidsizliyə düşür və Allaha qarşı üsyankar davranırlar. Mallarının əskilməsinin, əslində, imtahan olduğundan tamamilə qafil olduqları üçün bu böyük zərərə görə üzülürlər.

Halbuki Allah Quranda iman edən qullarına əllərindən çıxanlar üçün üzülməməyi və özlərinə verilən nemətlərə görə də sevinib qürrələnməməyi əmr etmişdir (Hədid surəsi, 23). Allah ayələrdə insanları gözəl əxlaqa və mötədil olmağa çağırır. Bir insanın var-dövləti artanda qürrələnməsi və azalanda üzülməsi Allaha qarşı nankorluqdur.

Ancaq hadisələri öz yanlış düşüncələri əsasında dəyərləndirən cahil toplumu mal itkisində üzülməyi təbii qarşılayır. Məsələn, bir insanın həyatı boyu çalışıb əldə etdiyi sərvəti təbii fəlakət nəticəsində bir neçə saniyədə əlindən alına bilər. Yaxud da uzun müddət pul yığıb aldığı gözəl ev yanğın nəticəsində yararsız hala düşə bilər. Dünya həyatının imtahan yeri olduğunu və belə bir hadisə ilə imtahan edildiyini dərk etməyən insan malı bir anda əlindən alınanda nə baş verdiyinə təəccüblənər və üsyankar davranmağa başlayar.

Din əxlaqından uzaq insanlar mal itkisini bu yanlış düşüncə ilə dəyərləndirdiyi üçün bu hadisənin xeyirli və yaxşı yönünün olmadığını düşünürlər. Necə ki, Allaha təvəkkül etmədiklərinə görə, bu hadisə həqiqətən onların əleyhinə olur.

Halbuki xeyirlə baxan insanlar üçün vəziyyət tamamilə fərqlidir. Əgər mal-mülkləri əllərindən çıxsa, bunun bir çox xeyir və hikmətləri vardır. Bəlkə

də Allah bu vasitə ilə zənginlikdən qürrələnən və dünya həyatının keçici həvəsinə düşən qullarına xəbərdarlıq edir. Onlara bütün gücün Ona aid olduğunu və sadəcə Ona rəğbət etmək gərəkdiyini xatırladır. Yaxud da o çətinliyə səbir edən qullarına dünya və axirətdə daha gözəli ilə qarşılıq verib onların bilmədiyi xeyirli gələcək müəyyən edə bilər. Dünya həyatının keçici və zahiri mənfəətləri yerinə sonsuz axirət həyatının saysız nemətlərini onlara verə bilər. Belə ki, dünya və axirət nemətləri müqayisə olunarsa, axirət nemətlərinin daha xeyirli olduğu çox aydındır.

Belə hadisələrin dünyaya aid bir çox xeyiri də ola bilər. Məsələn, bir insan yeni aldığı maşını ilə qəza keçirərsə və maşın çox zərər görərsə, bunda mütləq xeyir vardır. Allah bəlkə də bu insanı daha böyük qəzadan və ya başına gələcək pis hadisədən qorumuşdur. Vicdanlı insan başına gələn bu hadisəni xəbərdarlıq kimi qəbul edib bağışlanma diləyir və Allahın yaratdığı taleyə qeyd-şərtsiz təslim olur.

## "Ola bilsin ki, sevdiyiniz bir şey sizin üçün zərərli olsun"

"Bəqərə" surəsinin 216-cı ayəsində Allah zərərli kimi görünən bəzi şeylərin insanlara xeyir gətirəcəyini xəbər vermişdir. Lakin eyni ayədə bununla yanaşı, insanların sevdiyi şeylərin özlərinə zərərli ola biləcəyi xəbər verilmişdir. Quranda bu mövzu ilə əlaqədar verilən misal xəsislik edən varlı inkarçıların vəziyyətidir. İnkarçıların xəsisliyi fərasət zənn etməsi və Allah yolunda istifadə etmədikləri var-dövlətin onlara fayda gətirəcəyini düşünməsi böyük qəflətdir. Çünki Allah belə zənginliyin sahibləri üçün zərər olduğunu və axirətdə əzaba səbəb olacağını Quranda bildirmişdir:

**Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyirinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır... (Ali İmran surəsi, 180)**

“Qəsəs” surəsində də Allahın çoxlu var-dövlət verdiyi, ancaq buna görə qürrələnən və azğınlaşan Qarunun hekayəsi keçir. Edilən xəbərdarlıqları dinləmədiyinə görə həlak edilən Qarun insanlar üçün ibrət sayılır. Onun bu vəziyyəti Quranda belə xəbər verilir:

**...Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. Allahın sənə verdiyi ilə axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir". (Qarun) dedi: "Bu, mənə ancaq məndə olan biliyə görə verilmişdir". Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz. (Qəsəs surəsi, 76-78)**

Ayələrdə bildirildiyi kimi, Qarun sahib olduğu zənginliyin ona xeyir gətirəcəyini zənn etmiş və qürrələnmişdir. Ancaq ən son ziyana uğramışdır.

Möminlərin isə mal-mülkü dəyərləndirmə şəkli bura kimi bəhs edilən səhv cahil düşüncədən tamamilə fərqlidir. Quranda əmr edildiyi kimi davranan mömin üçün mülk sahibi olmaq o qədər də əhəmiyyətli deyildir. Mal sevgisi, yığmaq həvəsi kimi cahillərə xas hərəkətlərin heç biri möminlərin üstün əxlaqında yoxdur. Çünki mömin bütün həyatını Allahın rizasını qazanmağa həsr etmişdir. Buna görə, malını Allah yolunda xərcləyir və nəfsinin istəklərinə uymur. Beləliklə də dünyəvi mənfəətlərə deyil, axirətə yönəlir və buna görə də möminlər Allah qatında üstün edilmişdir. Allah onları Quranda belə müjdələyir:

**Şübhəsiz ki, Allah möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır. Onlar Allah yolunda vuruşar, öldürər və öldürülərlər. Bu, Tövratda, İncildə və Quranda Allahın öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı**

**əhdə vəfa göstərən ola bilərmi?! Elə isə, Onunla etdiyiniz bu alış-verişə görə sevinin! Məhz bu, böyük uğurdur.**

**(Tövbə surəsi, 111)**

Bu həqiqəti bilən peyğəmbərlər, elçilər, saleh möminlər tarix boyu nemət olaraq verilən malın Allaha aid olduğunu bilərək hərəkət etmişlər. Bütün sərvətindən Allah rizası üçün istifadə etmişlər. Məsələn, ayədə bildirildiyi kimi, sevdiyi malı qohuma, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və s. (Bəqərə surəsi, 177) verəcək əxlaq və mərhəmətə sahibdirlər. Bundan başqa, möminlər bəzi insanların etdiyi kimi, nümayiş üçün deyil, tam əksinə, Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün (Bəqərə surəsi, 265) infaq edirlər. Buna görə də malları azalsa da, cahilin verdiyi reaksiyadan fərqli olaraq, bunun imtahan olduğunu bilir və bunda xeyir görüb səbir edirlər. İnananların belə vəziyyətdə necə davrandıqları Quranda belə xəbər verilir:

**De: "Ey mülkün sahibi olan Allah! Dilədiyin kimsəyə mülkü verərsən, dilədiyindən də mülkü alarsan. Dilədiyin kimsəni yüksəldər, dilədiyini də alçaldarsan. (Hər cür) xeyir Sənin əlindədir. Şübhəsiz ki, Sən hər şeyə qadirsən!**

**(Ali İmran surəsi, 26)**

İnananlar yaxşı bilirlər ki, inkarçıların malları axırda onlara əzab gətirir. Bu, uca Allahın vədidir. Ayədə belə buyurulur:

**Onların malları və övladları səni imrəndirməsin! Həqiqətən, Allah bunlar vasitəsilə onlara dünya həyatında əzab vermək və kafir olaraq can vermələrini istəyir. (Tövbə surəsi, 55)**

## Xəstəliklərin ardındakı hikmətlər

Cahil cəmiyyət həmişə gələcək üçün plan qurar və bunun həmişə öz istədiyi kimi davam etməsini istəyər. Buna görə də, anidən gələn bir xəstəlik və ya gözlənilməz qəza ilə bütün həyatı alt-üst olur. Çünki plan qurarkən xəstəlik və ya qəza kimi hadisəni heç düşünmürlər. Hətta bir çoxu sağlam bədənə sahib olsa da, hər gün minlərlə insanın başına gələn bu cür hadisə ilə qarşılaşacaqlarını heç düşünmürlər.

Buna görə, cahil toplum belə bir vəziyyətdə üsyankarlığa başlayır. "Mənim başıma niyə bu gəldi" kimi düşüncə ilə taleyə zidd davranırlar. İnkarçıların bu məntiqlə xəstəlik və ya qəza zamanı təvəkkül etməsi və ya hadisəyə xeyirlə baxması mümkün deyil.

Tale həqiqətini qavramayan bu insanlar xəstəliyin səbəbini yalnız virus və mikroblarda görürlər. Yenə eyni şəkildə, maşın qəzasında bunun tək səbəbini pis sürücüdə axtarırlar. Halbuki həqiqət belə deyildir. Xəstəliyə səbəb olan hər mikroorqanizm və ya insana zərər verən hər vasitə, hər insan Allahın səbəb olaraq yaratdığı varlıqlardır. Bu varlıqların heç biri başıboş deyil. Hamısı ancaq Allahın idarəsi ilə hərəkət edir. Əgər insan bir virusa görə ağır xəstəliyə tutulursa, bu, uca Allahın bilgisi daxilindədir.

Əgər maşın adamı vurub şikəst edirsə, bu da Allahın yaratdığı taledir. İnsan nə edirsə-etsin, bunları dəyişdirə bilməz, taleyindən tək bir anı çıxara bilməz. Çünki tale bir bütün olaraq yaradılır. Sonsuz qüdrət sahibi Allaha təslim olan, Onun sonsuz ağıl və rəhmətinə güvənən insan üçün xəstəlik də, qəza da, digər müsibət kimi görünən hadisələr də sonu xeyirlə bitəcək keçici imtahanlardır. Əhəmiyyətli olan Allaha iman edən, Onun yaratdığı taleyə təslim olan insanların çətinlik və xəstəlik vaxtlarında gözəl əxlaq göstərməsidir.

Xəstəlik və qəzalarda möminlər səbirli və əxlaqlı davranırlar və bu hadisələr onlar üçün Allaha yaxınlaşmağa bir fürsətdir. Quranda çətinliklə yanaşı, xəstəlik zamanı da səbir etməyin əhəmiyyəti vurğulanmışdır:

**Yaxşı əməl (ibadət vaxtı) üzünüzü şərqə və qərbə tərəf çevirməyiniz deyildir. Yaxşı əməl sahibləri o kəslərdir ki, Allaha, axirət gününə, mələklərə, kitablara və peyğəmbərlərə inanar, mal-dövlətini sevməsinə baxmayaraq onu qohum-**

**əqrəba, yetimlər, yoxsullar, yolda qalanlar, dilənçilər və qulların azad olunması üçün sərf edər, namazı qılar, zəkatı verər, əhd etdikləri zaman əhdlərinə sadiq qalar, darlıqda, çətinlikdə, eləcə də döyüş vaxtı səbir edərlər. Onlar sadiqlərdir, əsil müttəqilərdir. (Bəqərə surəsi, 177)**

Yuxarıda qeyd olunduğu kimi, ayədə xəstəlik dövrünün də vurğulanması düşündürücüdür. Fiziki narahatlıqla qarşılaşan insan gözəl əxlaq göstərmək üçün bütün bunların imtahan olduğunu, xəstəliyi və şəfasını da yaradanın yalnız Allah olduğunu düşünməlidir. Əgər insan bunlardakı xeyir və hikməti düşünərsə, bunları həmin vaxt görməsə də, həmin çətinlikdən karlı çıxar. Dünyada müvəqqəti çətinlik çəkər, lakin Allahın izni ilə, axirətdə Rəbbimizə təslim olduğundan dolayı mükafat almağı ümid edə bilər.

Ancaq unutmaq olmaz ki, bu həqiqəti anlamaq və həqiqətən, belə hadisə ilə qarşılaşdıqda gözəl əxlaq göstərmək çox önəmlidir. Buna görə, bütün xəstəliklərin hikmətlə yaradıldığını unutmamalıdır. Allah diləyərsə, insan heç vaxt xəstə olmaz, ağrı və acı çəkməz. Lakin insan belə çətinliyə rast gələndə bilməlidir ki, bunun həm dünyanın keçici olduğunu, həm də Allahın sonsuz gücünü anlaması baxımından çox hikməti vardır.

Bu hissədə bu hikmətlərin bir neçəsindən söz açacağıq və xəstəlik, qəza kimi hadisələrdə səmimi möminin necə təvəkküllü və müti olacağından bəhs edəcəyik.

## Xəstəlik insana acizliyini və Allaha möhtac olduğunu xatırladır

Xəstəlik zamanı insanın o günə qədər sağlam olduğu bədəni gözlə belə görülməyən virus və mikroblara məğlub olur. Bilindiyi kimi, bir çox xəstəlik halsızlıq, müxtəlif ağrı və acı ilə özünü büruzə edir. Hətta bəzi xəstəliklərdə insan yataqdan belə qalxa bilməyəcək dərəcədə yorğun olur, yaxud çox ağrıyır. Mikroskopik bir virusun bədəndə meydana gətirdiyi bu zəifliyə əngəl ola bilməyən insan bu zaman acizliyini və Allaha nə qədər möhtac olduğunu çox yaxşı başa düşür. Beləcə, sağlam ikən böyüklənən, sahib olduqları ilə

qürrələnən insan lazımi qədər düşünmədiyi bu həqiqəti görə bilər və hər şeyin yaradıcısı Rəbbimizin sonsuz qüdrətini daha yaxşı təqdir edər.

## Xəstəlik insana sağlamlığın Allahdan nemət olduğunu xatırladır

Gündəlik həyatda çox vaxt düşünülməyən mövzulardan biri də sağlam olmağın nə qədər böyük nemət olmasıdır. Uzun müddət xəstə olmayan, narahatlıq və ya ağrı hiss etməyən insan bu vəziyyətə alışır. Lakin ani bir xəstəliklə qarşılaşanda sağlam olmağın Allahın lütfü olduğunu dərk edir. Çünki bir şeyin dəyəri, o şeyi itirəndə və ya ondan məhrum olanda çox yaxşı bilinir. Məşhur İslam mütəfəkkiri Səid Nursinin dediyi kimi:

"Soyuq olmazsa, isti bilinməz. Zövqü olmaz. Aclıq olmazsa, yemək ləzzət verməz. Xəstəlik olmazsa, sağlamlıq ləzzətsizdir. Yəni hər şey ziddi ilə anlaşılır və qiymət qazanır".

## İnsan ciddi xəstəlik zamanı dünyanın müvəqqəti olduğunu, ölüm və axirəti daha çox düşünməyə başlayır

İnsanların bir çoxu təhlükəli xəstəliyə tutulanda və ya bədəninin bir üzvünü itirəndə bunu çox pis hadisə kimi görürlər. Halbuki həmin adamın xəstəliyi bəla kimi deyil, axirətdə xilas olması və Allaha yönəlməsi üçün ona verilə bilər. Çünki ciddi xəstəliyə tutulan insanın şüuru təbii olaraq daha açıq olur.

Çətin xəstəlik insanın vərdişlərə əsaslanan əhvaldan, yəni qəflətdən çıxıb həyatın mənasını və axirət həqiqətini daha çox düşünməsinə səbəb olur. İnsan dünyaya bağlılığın mənasız olduğunu və ölümün nə qədər yaxın olduğunu başa düşür. Bütün həyatını qəflət içində keçirdiyi halda, heç gözləmədiyi anda

xəstələnməsi axirət həyatının və Allahın rizasını qazanmağın əhəmiyyətini anlamağına vəsilə olur.

## İnsanın Allaha duası və yaxınlığı artır

Ciddi xəstəliyin bədəndə təsiri göründükcə bir çox insan daha əvvəl düşünmədiyi ölümü düşünməyə başlayır və bu vəziyyətdə, insan səmimi şəkildə Allaha dua edib sağalmaq istəyir. Həyatı boyu heç dua etməyən insan belə, amansız xəstəlik qarşısında Allaha yalvarmağa ehtiyac duyur. Rəbbimizə qarşı çox səmimi dua edir, buna görə də Allaha yaxınlığı artır. Əgər həmin adam sağalanda da eyni səmimiyyətlə dua etməyə davam edərsə və nankorluq etməzsə, həmin xəstəlik onun ixlaslı həyat yaşamasına vəsilə olmuş olar.

Allah Quranda belə çətin zamanlarda Ona yönələn insanları xəbər vermişdir. Ayələrdə buyurulur:

**Biz insana nemət verdiyimiz zaman o (Bizdən) üz döndərib (haqdan) uzaqlaşar. Ancaq ona bir pislik toxunduqda yalvarıb-yaxarar. (Fussilət surəsi, 51)**

**İnsana bir ziyan dəydiyi zaman uzanaraq və ya oturaraq, yaxud ayaq üstə Bizə dua edər. Ancaq onu ziyandan xilas etdiyimiz zaman özünə dəymiş ziyan üçün Bizə dua etməmiş kimi keçib gedər. Həddi aşanlara, etdikləri əməllər bu şəkildə gözəl göstərildi. (Yunis surəsi, 12)**

**İnsanlara bir zərər toxunduğu zaman Rəbbinə yönəlib Ona dua edərlər. Sonra Allah onlara Öz tərəfindən bir rəhmət daddıran kimi onlardan bir qrup yenə Rəbbinə şərik qoşar.**

**(Rum surəsi, 33)**

Yuxarıdakı ayələrdən aydın olduğu kimi, insanın sıxıntı zamanı dua etməsi kifayət deyil. Allaha qarşı aciz olduğunu biləndə dua etdiyi kimi, nemət veriləndə də Allaha sığınmalıdır. Bu şəkildə, xəstəlik və sıxıntı insanın acizliyini anlayıb tövbə etməsinə və geri qalan ömrünü itaət edərək keçirməsinə səbəb olur.

## Xəstəliyə qarşı təvəkkül və səbir etməyin qarşılığı, axirətdə sonsuz Cənnətə qovuşmaqdır

Daha əvvəl də bildirdiyimiz kimi, xəstəliklərin bir hikməti də dünyada insanların səbrinin və Allaha təvəkküllərinin sınanmağıdır. Möminlər xəstəlik zamanı Allaha olan sədaqət və səbri ilə cahil cəmiyyətindən fərqlənirlər. Çünki çətin zamanlarda gözəl davranışın Allahın rizasını qazanmağa uyğun olduğunu bilir və axirətdə böyük qarşılığının olacağını umurlar. Daha öncə Allaha tam təslim olmayan bir insan isə xəstəliyi sayəsində bu gözəl xüsusiyyətləri qazana bilər və müvəqqəti dünyada qısa sürən sıxıntıların qarşılığında sonsuz Cənnət həyatının nemətlərinə qovuşa bilər.

Hz .İbrahimin xəstələndiyi zaman səmimi dua etməsi möminlər üçün gözəl nümunədir. Bu dua ayədə belə xəbər verilir:

**Xəstələndiyim zaman O mənə şəfa verir. O məni öldürəcək, sonra da dirildəcəkdir. (Şuəra surəsi, 80-81)**

Başqa bir gözəl nümunə də hz. Əyyubun sıxıntı zamanı üstün əxlaqıdır. Quranda bildirildiyinə görə, hz. Əyyuba şiddətli sıxıntı üz vermiş, lakin bu zaman Allaha bağlılıq və sədaqət göstərib nümunəvi hərəkət etmişdir. Buna görə, hz. Əyyub Allaha təslim olmağı və təvəkkülü ilə təriflənən bir peyğəmbərdir.

Quranda xəbər verildiyinə görə, hz. Əyyub şeytanın vəsvəsələri ilə də qarşılaşmışdır. Şeytan bu vəziyyətdən istifadə edib onu təvəkküldən uzaqlaşdırmaq istəmişdir. Xəstəlik və ya sıxıntı zamanı bəzi insanlar diqqətini toplaya bilmədiklərindən dolayı şeytanın təlqininə açıq olurlar. Lakin hz. Əyyub

Allaha könüldən bağlı peyğəmbər olaraq şeytanın tələsinə düşməmişdir. Sıxıntıdan qurtulmaq üçün səmimi şəkildə Allaha dua edib Ondan yardım istəmişdir. Quranda hz. Əyyubun nümunəvi duası belə bildirilir:

**Əyyubu da (yada sal)! Bir zaman o, Rəbbinə: "Mənə zərər dəydi (başıma bəla gəldi). Sən mərhəmətlilərin ən mərhəmətlisisən!" - deyərək səslənmişdi. Beləliklə, Biz onun duasını qəbul edib dərgahımızdan bir mərhəmət və ibadət edənlər üçün bir xatirə olsun deyə onun başına gəlmiş bütün bəlaları sovuşdurduq, ailəsini geri verdik və onlarla yanaşı bir o qədərini də ona bəxş etdik. (Ənbiya surəsi, 83-84)**

Allah onun səmimi duasını qəbul edib "Şafi" (şəfa verən) ismi ilə nəyin şəfalı olacağını hz. Əyyuba bildirmişdir. Ayədə belə bildirilir:

**Bəndəmiz Əyyubu da yad et! Bir zaman o: "Şeytan mənə zərər və əziyyət verdi!" - deyə Rəbbinə səslənmişdi. "Ayağını yerə vur! Bu, yuyunacaq və içiləcək sərin sudur". Bizdən bir mərhəmət və ağıl sahibləri üçün bir ibrət olsun deyə ona həm ailəsini, həm də onlarla birlikdə bir o qədərini verdik. "Əlinə bir dəstə çubuq götür və (zövcəni yavaşca) onunla vur. Andını da pozma!" Biz onu səbir edən gördük. O nə gözəl bəndədir! Həqiqətən, o, daim Allaha yönəlirdi. (Sad surəsi, 41-44)**

Hz. Əyyub sıxıntıya düşdüyü əsnada Allaha olan təvəkkülü, bağlılığı və səbri ilə göstərdiyi üstün əxlaqın mükafatını, heç şübhəsiz, almışdır (doğrusunu Allah bilir). Özündən sonra gələn bütün müsəlmanlara bu əxlaqı ilə nümunə olmuşdur.

## Möminlərin etdiyi səhvlərdə də xeyir vardır

Cahil cəmiyyətlərin ən çox çəkindiyi mövzulardan biri səhv etməkdir. Çünki səhv edən adam cəmiyyətin gözündən düşür və ümumiyyətlə, qınaq mövzusu olur. Yaxud da önəm verdiyi bəzi fürsətləri qaçırır. Buna görə, cahil insanlar arasında səhv etmək, adətən, qorxulu yuxuya çevrilmişdir.

Halbuki Quran əxlaqında vəziyyət çox fərqlidir. İman edənlər, heç kimi xətalarına görə dəyər vermirlər. Səhv edənin bir insan olduğunu, xətaya meylli olduğunu bilir, ona qarşı şəfqət və mərhəmət duyurlar.

Bununla yanaşı, mömin xəta etdikdə səmimi şəkildə düşünüb yanlış etdiyini başa düşür; Allah qorxusu və vicdanı onu tez hərəkətə keçirər. Xətasını düzəltmək üçün çalışar. Sonsuz mərhəmət sahibi olan Allaha dua edər və bağışlanma diləyər.

Möminin xəta etdikdən sonra peşman olması yenə ona xeyirlidir. Çünki bu, cahilin yaşadığı sıxıntılı peşmanlıq deyil. Yenə eyni səhvi etməmək üçün bir qərardan ibarətdir. Bu vəziyyətdə möminin itaətkar davranışı, təvəkkülü və bütün hadisələrin taleyində olduğunu bilərək hərəkət etməsi çox əhəmiyyətlidir. Beləcə, Allaha olan yaxınlığı daha da artar.

## "Hər kəs ölümü dadacaqdır..."

Cahil inancına görə, bir insanın başına gələn ən pis hadisələrdən biri yaxınının və ya özünün ölümüdür. Ölümə yaxınlaşmaq və ya yaxın adamını itirmək ən qorxulu şeylərdən biri sayılır. Ölümdən heç danışmamağı, söz düşəndə də mövzunu tez dəyişməyi məsləhət görürlər. Onların yanlış inancına əsasən, bir çox hadisəyə xeyir gözü ilə baxıla bilər, lakin insanın ölməsində əsla xeyir yoxdur...

Din əxlaqını yaşamayan cəmiyyətlərin hamısı ölümü eyni cür dəyərləndirər və fərqli düşünmürlər. Ölümü yox olma kimi görür, axirətə tərəddüdlə yanaşırlar. Bu insanlar üçün tək yaşayış yeri dünyadır. Dolayısilə, onlara görə ölümlə yanaşı, bu imkan tamamilə bitir və ölən insandan geriyə sadəcə üzüntü qalır. Xüsusilə də çox sevdiyi bir yaxınını itirən adam qəm-qüssəli olur və çox sıxıntı keçirir. Hətta yaxını gənc yaşında ölsə, Allaha və

taleyə üsyan etməyə başlayır. Halbuki onlar çox əhəmiyyətli həqiqəti unudurlar:

Əvvəla, yer üzündəki insanların heç biri öz istəkləri ilə dünyaya gəlməyiblər və heç bir insan öz iradəsi ilə həyat əldə etməyib. Bütün insanların həyatı Allaha aiddir; hər kəs uca Allahın təqdir etdiyi zamanda və Onun diləməsi ilə həyat tapıb. Göylərin, Yerin bu ikisinin arasındakı canlı-cansız hər varlığın sahibi olan Allah istədiyi insanın canını dilədiyi şəkildə və dilədiyi zamanda alacaq. Allahın taledə müəyyən etdiyi bu zamanı heç kimin ertələməyə və ya önə çəkməyə gücü çatmaz. Bu həqiqət Quranda belə bildirilir:

**Allahın izni olmayınca heç kəsə ölüm yoxdur. (Ölüm,) vaxtı müəyyən edilmiş bir yazıdır. Kim dünya savabını (nemətini) istəyərsə, ona ondan verərik. Kim axirət savabını (cənnəti) istəyərsə, ona da ondan verərik. Şükür edənləri mükafatlandıracağıq. (Ali İmran surəsi, 145)**

Bundan başqa, insan ölümdən uzaqlaşmaq üçün nə qədər tədbir alsa, nə qədər güvəndiyi yerlərə sığınsa da ölümdən qaça bilməz. Heç gözləmədiyi şəkildə dünyadan gedə bilər. Eyni şəkildə, bir yaxınının ölməməsi üçün nə qədər çalışsa da, hətta dünyanın bütün imkanlarını səfərbər etsə də, bu istəyini (Allah diləmədikcə) reallaşdıra bilməz. Bir ayədə ölümün hər yerdə insanı tapacağı belə ifadə edilmişdir:

**Harada olursunuzsa olun, hətta möhkəm qalalar içərisində olsanız belə ölüm sizə çatacaqdır"... (Nisa surəsi, 78)**

Buna görə də insan özünü və ya yaxınlarını ölümdən qaçırmamalı, əksinə, ölümdən sonrası üçün hazırlıq görməli və sevdiyi insanların da axirətdəki sonsuz həyatı üçün hazırlıq görməsinə vəsilə olmalıdır.

# Ölüm son deyil, başlanğıcdır

Axirət inancı zəif olan, yaxud heç olmayan insanların ölüm və ölümdən sonrakı həyata baxışı çox yanlışdır. Bundan dolayı, yuxarıda bəhs etdiyimiz kimi, ölümü xeyirli hadisə kimi deyil, müsibət kimi görürlər. Ölən adamı bir daha görə bilməyəcəklərini və onun torpaqda yox olduğunu düşünürlər.

Halbuki ölüm yox olma deyil, əksinə, insanların əsl yurd olan axirətə keçmələri üçün bir vasitədir. İnsanların dünyadakı xeyir və pis əməllərinin qarşılığını görəcəyi hesab gününə yaxınlaşdığı bir hadisədir. İstisnasız hər insan ölümlə qarşılaşacaq və əbədi axirətə keçəcək. Bu, bir çox insanlar üçün gənc yaşda olur, bir çoxları üçün də irəli yaşlarda olur. Nəticədə, heç kim yer üzündə əbədi qalmayacaq; insan hər gün ölümə bir az daha yaxınlaşır. Buna görə, ölümdən qaçmağa çalışmaq, ölümü düşünməmək və ölümü müsibət olaraq dəyərləndirmək çox ağılsız davranışdır.

Bəzi insanlar isə axirətə inandıqlarını desələr də, yenə ölənin arxasınca ağlamağı təbii hal kimi görürlər. Halbuki Allahın ədaləti sonsuzdur. Ölən adam Allaha hesab verəcək və dünyada etdiyi hər şeyin qarşılığını misli ilə alacaq. Bu səbəbdən, Allaha və axirətə inanan, dünyada Rəbbimizin istədiyi kimi həyat sürən hər insan üçün ölüm sonsuz gözəllik həyatının qapısıdır.

İman edənlər üçün ölüm əbədi qurtuluşun başlanğıcıdır. Lakin yer üzündə təkəbbürlük edən, axirəti inkar edən və Allaha hesab verəcəyini görməzlikdən gələn cahil insanları üçün ölüm sonsuz əzabın qapısıdır. Buna görə də həmin insanların ölümü xeyir olaraq görməsi mümkün deyildir.

Bu zidd anlayış fərqinə görə, möminlərin reaksiyası cahildən kəskin şəkildə ayrılır. Çünki cahil inancına görə ən pis hadisə sayılan ölüm möminlər üçün yenə xeyir vəsiləsi kimi görünür. Möminlər ölümü uca Allahın aşağıdakı ayəsində bildirilir:

**Əgər Allah yolunda öldürülsəniz, yaxud ölsəniz, (bilin ki,) şübhəsiz, Allahın bağışlaması və rəhməti onların (dünyada) yığdıqları (bütün) şeylərdən daha xeyirlidir.**

**(Ali İmran surəsi, 157)**

Bu ayədən də göründüyü kimi, möminlərin yaşaması kimi, ölümləri də xeyirlidir. Xüsusilə, Allah yolunda bir iş görərkən ölən möminlərə Allah qatında xüsusi dərəcə vardır. Buna görə də şəhidlik məqamı möminin şərəfidir və axirətdəki mükafatını artıran xeyirli hadisədir. Axirəti düşünən və Allahın rizasını qazanmaq üçün yaşayan möminin Allah yolunda şəhid olması çox şərəflidir. Quranda xəbər verilmiş bu müjdəni bilən möminlər, Allah rizası üçün çalışarkən ölən möminlər üçün heç vaxt kədərlənməzlər.

Tam əksinə, bu möminin ölümündəki xeyir və gözəllikləri görüb sevinərlər. Heç şübhəsiz, gözəlliklərin ən üstünü Allahın rizasını və cənnətini qazanmaqdır. Uzun və xeyirli ömür sürən, bütün ibadətlərini yerinə yetirən, məsələn, yalan danışmayan, yaxşı əməldən xoşu gələn, ədalətli olan, zəkat verən, oruc tutan, namaza ciddi yanaşan və Allahın hədlərini qoruyan bir möminin Allah qatında üstün dəyəri olduğu umulur.

Lakin inkarçı cəmiyyət uzun həyat yaşamağın daha xeyirli olacağını zənn etməklə yanılırlar. Aşağıdakı ayədə Allah bu mövzudakı həqiqəti qəti şəkildə açıqlayır:

**Kafirlər, onlara verdiyimiz möhlətin özləri üçün daha xeyirli olduğunu sanmasınlar. Onlara ancaq günahlarını artırmaları üçün möhlət veririk. Onlar üçün alçaldıcı bir əzab vardır.**

**(Ali İmran surəsi, 178)**

Bütün həyatını dünyanın keçici mənfəətini qazanmaq üzərinə quran cahil insanlar düşünürlər ki, ömürləri nə qədər uzun olsa, o qədər çox dünyəvi nemətlərdən faydalanacaqlar. Beləcə, Allahı və axirəti tamamilə unudaraq yaşayan bu insanlar boş yerə sərf etdikləri zamanın axirət həyatı üçün nə qədər böyük əhəmiyyət daşıdığını düşünmürlər.

Halbuki yuxarıdakı ayədə də bildirildiyi kimi, özləri üçün xeyir zənn etdikləri bu müddət onların əleyhinədir. Bu ayə üzərində düşünən insan xeyir və şəri necə dəyərləndirəcəyini və Allahın “sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli” (Bəqərə surəsi, 216) hökmünü yaxşı başa düşər.

# HADİSƏLƏRDƏKİ XEYİRİ GÖRMƏYƏ MANE OLAN SƏBƏBLƏR

## Dünyanın imtahan yeri olduğunu unutmaq

Bir çox insan həyatının böyük hissəsinin təsadüflərlə keçdiyini düşünər. Lakin bu, çox yanlış düşüncədir. Bir insanın xərçəng xəstəsi olmasından tutmuş yediyi yeməyə və geydiyi paltara kimi hər şey onun taleyində müəyyən edilmiş xüsusi hadisələrdir. Bütün bu hadisələri incəliklərinə kimi insanın imtahanı üçün Allah yaradır.

Odur ki, inananlarla inkarçılar arasındakı ən əsas fərq burada ortaya çıxır. Möminlər həm öz başına gələn, həm də ətrafında reallaşan hadisələri fərqli dəyərləndirirlər. Bu, Quranda Allahın əmr etdiyi şəkildə düşünərək hər hadisəni imtahan gözü ilə dəyərləndirməkdir. Dolayısilə, möminlər hər hadisədə imtahan olunduğunu bilib Allahı razı edəcək şəkildə davranmağa cəhd edirlər.

Digər tərəfdən, Quran əxlaqını yaşamayan insanların bir çoxu müxtəlif hədəflərə çatmaq istəyirlər. Bu hədəflər, ümumiyyətlə, yaxşı məktəbdə oxumaq, xoşbəxt ailə həyatı qurmaq, uşaqlarını evləndirmək, iş adamı olmaq, yüksək mövqeyə çatmaq, zəngin və etibarlı bir insan olmaq kimi şeylərdir. Bütün bunlar normal istəklərdir, lakin yanlış olan bəzi insanların bunları əldə etməyi həyatın ən önəmli qayəsinə çevirməsidir.

Həmin insanların bütün plan və cəhdləri bu dar çərçivə içindədir. Çünki bu insanlar həyatın ancaq bu dünyadan ibarət olduğunu düşünürlər. Halbuki bu, böyük səhvdir. Bir insan həyatı boyu istədiyi hər şeyi əldə etsə də, nəticədə həyatı bir yerdə bitəcək və həqiqi sonsuz həyat olan axirətə keçəcək. Dolayısilə, ancaq dünyanın keçici bərbəzəyini qazanmağa yönələn həyat, Allahın diləməsi xaricində, boş yerə keçmiş həyatdır.

Üstəlik, məqsədi bu cür həyat olan insanın, dünyada istədiklərinə tam qovuşması mümkün deyil. Allahın yaratdığı qanuna əsasən, dünyadakı varlıqlar zamanla məhv olurlar. Zamanın məhvedici təsiri istisnasız hər şeyə aiddir. Məsələn, gözəl görünüşü və xoş qoxusu olan bir meyvə bir neçə günə xarab olur. İllərlə zəhmət çəkilib əldə edilən ev axırda köhnəlir və yararsız hala düşür.

Ən əhəmiyyətlisi isə dünyadakı hər şey kimi insan vücudu da sürətlə qocalmağa doğru gedir.

Zamanın təsirini və vücudun qocalmasını bütün insanlar yaşamaq məcburiyyətindədir. Saçın ağarması, müəyyən yaşdan sonra hüceyrələrin ölməyə başlaması, orqanların zəifləməsi, dərinin qırışması və bir çox əlamət insanın ölümə yaxınlaşdığını xatırladan açıq dəlillərdir.

Yaşlanma ilə yanaşı, insan ömrü ən yaxşı ehtimalla 60-70 ildir. Bir çox hallarda bu müddət qısala da bilir: qəza keçirmək, ölümcül xəstəlik kimi amillər insanın heç gözləmədiyi anda həyatını itirməsinə səbəb olur. Əvvəlki hissədə də bəhs etdiyimiz kimi, insan nə qədər ölümü düşünməyib ağlından çıxarmağa çalışsa da, bir gün qaçılmaz nəticə ilə özü də qarşılaşacaq. İstər dünyanın ən gözəli olsun, istərsə də ən məşhur adamı və ya ən varlısı olsun, hər insan ölümlə mütləq üz-üzə gələcək. Bütün həyatını sərf edib əldə etdiyi mal-mülkü, övlad və dostları onu ölümdən qoruya bilməz. Bu həqiqət Quranda belə xəbər verilir:

**De: "Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir". (Cümə surəsi, 8)**

Bütün bunlar bir həqiqəti göstərir: dünya həyatı keçicidir və insanın həqiqi yurdu deyildir. O halda, insanın əsas hədəfi bu dünya deyil, axirət olmalıdır. Ayədə belə buyurulur:

**Sizə verilən hər bir şey dünya həyatının keçici zövqüdür. Allahın yanında olanlar isə daha xeyirli və daha sürəklidir. (Bunlar) iman gətirib öz Rəbbinə təvəkkül edənlər üçündür. (Şura surəsi, 36)**

Dünya həyatının müvəqqəti olduğu və insanın ölümlü vücuda sahib olduğu bu qədər açıq olduğu halda, üzərində düşünüləcək çox önəmli bir mövzu ortaya çıxır. Bu mövzu insanın yaradılış məqsədidir. Allah Quranda dünya həyatını yaratma məqsədini belə açıqlayır:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, qüdrətlidir, bağışlayandır. (Mülk surəsi, 2)**

Allah Quranda bir çox ayə ilə insanın yaradılış məqsədinin Ona qulluq etmək olduğunu və dünya həyatının yaxşı və pislərin bir-birindən ayrılması üçün imtahan yeri kimi yaradıldığını bildirmişdir. Bu mövzudakı bir başqa ayə belədir:

**Biz yer üzündə olan hər şeyi onun ona məxsus bir bəzək timsalında etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək. (Kəhf surəsi, 7)**

İnsan həyatı boyu davamlı imtahan olunur, heç bir şey təsadüfən meydana gəlmir. Əgər insan bunları qavramayıb hadisələrin Allahdan müstəqil şəkildə baş verdiyini düşünərsə, o zaman böyük xətaya düşmüş olar. Çünki həyatın axarı içində meydana gələn hadisələr, əslində, Allahın insana xüsusi olaraq yaşatdığı imtahandır. İnsan bu imtahana verdiyi reaksiyalardan və əməllərindən məsuliyyət daşıyır.

Göstərdiyi hərəkətləri və əxlaqı sonsuz həyatını müəyyənləşdirir. Böyük-kiçik heç bir şeyin təsadüfən meydana gəlmədiyi, hamısının taledə Allahın təqdir etdiyi hadisələr olduğunu unutmamaq lazımdır. İnsan bu həqiqəti unutmadığı müddətcə qarşılaşdığı hər şeyin özü üçün xeyirli olduğunu da unutmaz. Çünki hər şey Allahın təqdiri ilə reallaşır. Bu vəziyyətdə insan hadisələrdəki xeyir və hikmətləri görmək, hər şeyi xeyirə yozmaq üçün ilk öncə dünya həyatının imtahan yeri olduğunu unutmamalıdır.

## Heç kimə qaldıracağından artıq yük yüklənməz

Allah hər insanı müxtəlif hadisələri və insanları vəsilə edib fərqli şəkildə imtahan edir. Lakin bunu bilmək lazımdır ki, Allah sonsuz ədalət sahibidir və qullarına qarşı Həlimdir (çox yumşaqdır); insana gücü çatmayan məsuliyyət verməz. Bu, Allahın vədidir:

**Biz hər kəsi yalnız qüvvəsi çatdığı qədər yükləyirik. Dərgahımızda haqqı deyən bir kitab vardır. Onlara zülm olunmaz. (Muminun surəsi, 62)**

**İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik. (Əraf surəsi, 42)**

İnsanın dünyada qarşılaşdığı hər cür ağır imtahan; xəstəliklər, qəzalar, maddi və mənəvi sıxıntılar və digərləri onun gücü çatdığı həddədir. Ancaq insan gözəl əxlaqı və səbri deyil, şeytanın xüsusiyyəti olan üsyan və nankorluğu seçərsə, o zaman bu öz seçimidir və bu hərəkətindən məsuliyyət daşıyır.

Zamanla meydana gələn hadisələrdə insan artıq çıxış yolunun qalmadığını, hər şeyin bitdiyini və bunun keçə bilmədiyi çətinlik olduğunu düşünə bilər. Həmin hadisədə bir xeyirin olduğunu unudub üsyankar davrana bilər. Amma bunlar, əslində, şeytanın verdiyi vəsvəsələrdir. Səmimi mömin bu həqiqəti bilməlidir ki, qarşılaşdığı hadisə nə olursa-olsun, mütləq gözəl əxlaq göstərə biləcəyi və səbir edə biləcəyi vəziyyətdir. Ümidsiz olmaq isə şeytandan gələn vəsvəsədir. Allah qullarına Öz rəhmətindən ümid kəsməməyi əmr etmişdir:

**Məgər onlar bilmirlərmi ki, Allah istədiyinin ruzisini bol edir, (istədiyinə də onu) azaldır? Həqiqətən, bunda iman gətirən qövm üçün ibrətlər vardır. De: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin.**

**Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, bağışlayandır, rəhmlidir!" Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona itaət edin. Sonra sizə heç bir kömək olunmaz. (Zümər surəsi, 52-54)**

Allahın yuxarıdakı ayələri ilə bildirdiyi əmrinə tabe olan və xeyir düşünən insan yenə ayələrdə bildirildiyi kimi, xeyirlə qarşılaşır; ümidini üzən isə tək-tənha və köməksiz qalır. Allah Öz rəhmətindən ümidini kəsənlərin inkarçı olduğunu belə bildirmişdir:

**Məhz Mənim mərhəmətimdən ümidlərini kəsənlər Allahın ayələrini və Onunla qarşılaşacaqlarını inkar edənlərdir. Elə onlar üçün ağrılı-acılı bir əzab vardır. (Ənkəbut surəsi, 23)**

**Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər.**

**(Yusif surəsi, 87)**

Mömin, Allahın əmrinə əsasən, qəti olaraq ümidsiz olmamalı və qarşılaşdığı hadisələri daha dərindən təfəkkür etməlidir. Çətinliklə qarşılaşanda bunları düşünməlidir: bu imtahan əsnasında öz cəsarətini, səbrini, şəfqətini, sədaqətini, fədakarlığını və sevgisini izləyib dünyada, əslində, ona şahidlik edir. Yaddaşında qalan məlumat ilə axirətə gedəndə həmin gözəl xasiyyətinə və hərəkətinə qarşılıq olaraq Cənnətin verildiyini anlaması ona xüsusi həzz və zövq verəcək.

Çətinlikləri görən nəfs Cənnətdə onların yerinə verilən asanlıq və nemətləri şüurlu şəkildə və dərin hiss edəcək, dolayısilə, çox zövq alacaqdır. Unutmaq olmaz ki, çətinliyi bilməyən asanlığın nə olduğunu anlamaz. Anlasa da, çətinliyi bilən qədər dərindən hiss edə bilməz. Buna görə, möminin dünyada yaşadığı hər çətinlik axirətdə ona böyük zövq qaynağı olacaqdır.

Bundan başqa səbirli, ağıllı, sevgi dolu, gözəl əxlaqlı, şəfqətli olmağın dərin imani zövqü vardır. Bir mömin bu gözəl xüsusiyyətləri özündə görəndə çox zövq alır. Başqa möminlərin ondan aldığı imani zövqü hiss edəndə bundan

da ayrı zövq alır. Bu zövq Allahın izni ilə Cənnətdə sonsuza qədər davam edəcək.

## Hər cür pislik insanın özündən qaynaqlanır

Quran əxlaqından xəbərsiz insanların əsas xüsusiyyətlərindən biri yaxşılıq gördükdə və rahat yaşadığı zaman bunu özlərindən qaynaqlandığını zənn etməsidir. Başlarına pis hadisə gələndə isə günahı başqasında axtarırlar. Halbuki, Allahın ədaləti sonsuzdur və hər pislik insanın özündən qaynaqlanır. Ayədə belə buyurulur:

**Sənə gələn yaxşılıq Allahdandır, sənin başına gələn bəla isə sənin özündəndir... (Nisa surəsi, 79)**

Quranda inkarçıların hadisələri yanlış dəyərləndirməsinə nümunələr verilmişdir. Məsələn, firon və ətrafındakıların başına pis hadisə gələndə bunu hz. Musa və yanındakılardan qaynaqlandığını, əslində isə, onların özlərindən qaynaqlandığı "Əraf" surəsində belə xəbər verilmişdir:

**Onlara bir yaxşılıq üz verəndə: "Bu, bizə məxsusdur!"– deyərdilər. Onlara bir pislik üz verdikdə isə, Musa və onunla birlikdə olanları uğursuzluq əlaməti sayardılar. Əslində, onların uğursuzluğu Allah yanındadır, lakin onların çoxu (bunu) bilmir. (Əraf surəsi, 131)**

Yuxarıdakı nümunədə gördüyümüz kimi, dindən uzaq insanlar hər vəziyyətdə başqasını günahkar çıxarmağa çalışırlar. Öz etdiyi çirkinliyi və xainliyi görməzlikdən gəlir və yaxşı insanları pislikdə günahlandırırlar. Halbuki ayədə də diqqət edildiyi kimi, əsl pisliyin qaynağı özləridir. Əgər bu insanlar yaxşını pis, pisi də yaxşı görürlərsə, bunun günahı təkcə özlərindədir.

## Tale həqiqətini yanlış anlamaq

İnsanlar həyatı boyu gələcək illərə, sabaha, yaxud da bir saat sonraya müxtəlif plan qururlar. Bu planlar bəzən öncədən qurulduğu kimi baş tutur, bəzən də gözlənilməz səbəblərdən dolayı ləngiyir. Dindən uzaq insanlar bu ləngimələrin təsadüfən olduğunu düşünürlər.

Həqiqətdə isə bunların heç biri təsadüfən baş vermir. Bu planlar baş tutub-tutmasa da, o insanın taleyində Allahın öncədən təqdir etdiyi hadisələrdən ibarətdir. Bir ayədə bildirildiyi kimi: "**O, göydən yerə qədər olan bütün işləri idarə edir**" (Səcdə surəsi, 5). Bir başqa ayədə isə belə buyurulur: "**Biz, həqiqətən də, hər şeyi tale ilə yaratdıq**" (Qəmər surəsi, 49).

Hər insan öz iradəsi ilə planlar qurduğunu düşünsə də, əslində, Allahın ona yaratdığı taleyi yaşayır. Buna görə də, insan bir şey edib taleyini dəyişdirdiyini düşünsə də, əslində, yenə taleyində olduğu üçün bunu düşünür. Həyatının heç bir anı taleyindən kənar deyildir. Komada olan insan ölərkən taleyində olduğu üçün ölür, aylar sonra ayılıb sağalsa da, yenə taleyində olduğu üçün xilas olur.

Taleyi tam anlamayan insan bütün hadisələrin təsadüfən meydana gəldiyini, kainatdakı hər şeyin varlığını başıboş olaraq davam etdirdiyini zənn edir. Buna görə də başına pis iş gələndə bunu bəxtsizlik kimi görür.

Halbuki insanın ağıl və mühakimə bacarığı olduqca məhduddur. Üstəlik, zaman və məkana bağlı varlıqdır. İnsanın başına gələn bütün hadisələri istisnasız zaman və məkandan münəzzəh olan sonsuz ağıl sahibi Allah planlayır. Bu həqiqət Quranda belə xəbər verilir:

**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmazdan əvvəl bir kitabda (Lövhi-məhfuzda yazılmış) olmasın. Şübhəsiz ki, bu, Allah üçün asandır. (Hədid surəsi, 22)**

Bu böyük həqiqətin nəticəsi olaraq insan təkcə hər hadisənin xeyir olaraq yaradıldığını bilməli və Allahın özü üçün müəyyən etdiyi taleyə təslim olmalıdır.

Necə ki, həqiqi iman edənlər həyatda hər şeyin Allahın taleyinə tabe olduğunu və bir hikmətlə yaradıldığını bilərək yaşayırlar. Bunun nəticəsində də mütləq xeyirə qovuşurlar. İnsanların göstərdiyi bu gözəl əxlaq və sarsılmaz bağlılıq Quranda belə xəbər verilir:

**De: "Allahın bizim üçün təqdir etdiyindən başqası bizə üz verməz. O, bizim himayədarımızdır (yardımçımızdır). Ona görə də möminlər Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

Nəticədə, insan xeyiri də, şəri də, baş verəcək hadisələri əngəlləyə bilməz. Hadisələrə xeyir kimi baxarsa qazanar; şər kimi baxarsa, sadəcə ona zərər verər. İnsanın peşmançılıq duyması və ya üsyan etməsi taleyindəki bir saniyəni belə dəyişdirə bilməz. Bu görə də, insana düşən tək vəzifə Allahın sonsuz ədalətinə və taleyə təslim olub, bütün hadisələrə xeyir gözü ilə baxmaq və qəlbi arxayın halda taleni izləməkdir.

## Şeytan xeyiri əngəlləmək istəyir

Şeytanın son dərəcə nankor və üsyankar olduğu Quranda bizə xəbər verilmişdir. Onun insanlara sağdan, soldan, öndən və arxadan yaxınlaşdığını və insanları doğru yoldan azdırmaq üçün hər yoldan istifadə etdiyini ayələrdən bilirik. Şeytanın bu çirkin məqsədinə çatmaq üçün əl atdığı ən önəmli oyunlardan biri insanın başına gələn hadisələrdəki xeyiri görməsini əngəlləmək, beləliklə, onun Allaha qarşı nankor və üsyankar olmasına səbəb olmaqdır. Quran əxlaqının gözəlliklərini qavraya bilməyən, dindən uzaq yaşayan və axirəti unudub ömrünü boş məqsədlərlə keçirən insanlar şeytanın bu tələsinə düşürlər.

Şeytan bu insanların zəif tərəflərini tapıb, o yöndən onlara vəsvəsə verir; onları Allaha və Onun müəyyən etdiyi taleyə üsyan etməyə çağırır. Məsələn, bir insan qonşusu maşın qəzasına düşərsə, bunun taledə olduğunu ona çox rahat şəkildə xatırladar. Hətta "sədəqəniz var imiş, əsas odur ki, qurtuldunuz, Allah qorudu sizi" kimi sözlərlə onu sakitləşdirməyə çalışar. Lakin özü həmin qəzaya düşərsə, eyni rəftarı göstərməz. Şeytanın təhrik etdiyi nəfsinin oyununa gəlib

üsyan etməyi daha asan görər. Çünki hadisələrin xeyrini görməyə çalışmaq, Allaha itaət və təvəkkül etmək vicdandan asılıdır. Əgər insan vicdanından lazımınca istifadə etməzsə, belə hadisələrdə həmişə yanlış davranır.

Şeytanın xeyiri görməyi əngəlləməsi özünü hər yerdə göstərir. Vəsvəsədən insanın gördüyü işlərdəki xeyirli yönləri göstərməmək üçün də istifadə edir. Məsələn, Allah rizası üçün pul xərcləyən möminə gələcək qorxusu, malının azalacağı, dara düşəcəyi kimi vəsvəsələr verməyə çalışır. Şeytanın bu oyunu bir ayədə belə xəbər verilmişdir:

**Şeytan sizi yoxsulluqla qorxudar və sizə pis işləri (xəsisliyi) əmr edər. Allah isə sizə, Öz dərgahından bağışlanmaq və bərəkət vədəsi verər. Allah (rəhməti ilə) genişdir, hər şeyi biləndir. (Bəqərə surəsi, 268)**

Lakin bunların hamısı boş xəyallardır. Şeytanın bütün bu sinsi planları saleh möminlərə təsir etmir. Çünki möminin xeyirə pul xərcləməsindəki məqsədi dünyadakı rahatlığı və mənfəəti üçün deyildir. Əsl məqsədi ehtiyacı olanlara yardım edib Allahın rizasını, rəhmətini və cənnətini qazanmaqdır. Buna görə, şeytan inananlara bu cür vəsvəsə ilə yaxınlaşıb onları aldada bilmir. Şeytanın inananlara təsir edə bilmədiyini Allah Quranda bildirmişdir:

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, eşidəndir, biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allahı) xatırlayar və dərhal görərlər. (Əraf surəsi, 200-201)**

Bura kimi bəhs etdiklərimizdən aydın olduğu kimi, şeytan xeyiri əngəlləmək üçün insana, əsasən, iki yöndən yaxınlaşır. Birincisi, gözəl bir işi əngəlləmək üçün əlindən gələni edir və insanları yeganə məqsəd kimi dünyanın bərbəzəyinə yönəltməyə çalışır. İkincisi isə, hadisələrin xeyir və hikmətli tərəfini görməyi əngəlləməyə çalışır. Xüsusilə insanlara müsibət üz verdikdə bunu şər kimi göstərib insanları Allaha üsyan etməyə sürükləməyə çalışır.

Halbuki Allah insanlara sayca bitməyən nemətlər vəd edir. Doğulandan ölümə qədər hər an verdiyi nemətlərlə saysız-hesabsız lütf edir. Buna görə də Allahı dost və vəkil edən möminlər bir hadisə baş verdikdə onun hikmətini həmin an bilməsələr də, Allaha güvənirlər və sonda mütləq xeyir olacağını düşünüb səbir edirlər.

Hansı vəziyyətdə olsalar da, heç vaxt üsyankar davranmırlar və ya şikayətlənmirlər. Vahiməli görünən vəziyyətdə belə axırda bunun özlərinin lehinə çevriləcəyini bilirlər. Bəlkə də qarşılaşdıqları hər çətin vəziyyət, Allahın icazəsi ilə, axirətinin xilası üçün çox əhəmiyyətli və həyati dönüş nöqtəsidir.

# PEYĞƏMBƏRLƏRİN VƏ MÖMİNLƏRİN HƏYATINDAN NÜMUNƏLƏR

Peyğəmbərlərin və onlarla birlikdə olan saleh müsəlmanların həyatına baxdıqda o mübarək insanların ömrünün inkarçılarla fikri mübarizədə keçdiyini görərik. Bu insanlar bəzi vaxtlar ilk görünüşdə əleyhinə olan hadisələrlə qarşılaşmışlar. Bu zaman peyğəmbərlərin və onlara tabe olan möminlərin əsas xüsusiyyətləri ortaya çıxır: Şərtlər nə qədər çətin olsa da, bunun Allahdan gəldiyini bilib təvəkkül etmişlər.

Allahın elçiləri və saleh möminlər çətin anlarda Allahın yardım edəcəyindən əmin şəkildə, hər şeyin mütləq möminlərin lehinə çevriləcəyini bilərək yaşamışlar və bu həqiqət yönündə hərəkət etmişlər. Buna görə də Allaha olan dərin imanından qaynaqlanan bu üstün xüsusiyyətləri bütün müsəlmanlar üçün gözəl nümunə təşkil edir.

## İnkarçıların fikri hücumları

Quranda xəbər verildiyi kimi, tarix boyu inananlar onlara əngəl olmağa çalışan, hətta onları doğru yoldan döndərmək üçün hər cür yola baş vuran inkarçı cəmiyyət və münafiqlərlə qarşılaşmışlar. İnkarçıların möminləri qınaması, onlara iftira atması (xüsusilə dəlilik, yalançılıq, sehrbazlıq, uğursuzluq, əxlaqsızlıq kimi) və incidici sözlər deməsi Quranda xəbər verilmişdir:

**Şübhəsiz, siz mal-mülkünüzlə və canlarınızla imtahan ediləcəksiniz. Həqiqətən, sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətli (sözlər) eşidəcəksiniz. Əgər səbir edib (Allahdan) qorxsanız, əlbəttə, bu, əzmkarlıq tələb edən (dəyərli) işlərdəndir. (Ali İmran surəsi, 186)**

Yuxarıdakı ayədə inananların əleyhinə kimi görünən yalan və iftiraların, əslində, onların xeyrinə olduğu vurğulanmışdır. Bir başqa ayədə Peyğəmbərimizin (s) dövründə baş vern bir hadisə nümunə verilməklə bu vəziyyət belə açıqlanır:

**Həqiqətən, (Peyğəmbərin xanımına) iftira atanlar sizin içinizdən bir qrupdur. Bunu özünüz üçün pis bir şey hesab etməyin! Əksinə, o sizin üçün xeyirlidir. Onlardan hər biri qazandığı günahın cəzasını çəkəcəkdir. Onlardan günahın böyüyünü yüklənənə gəlincə, onun üçün böyük bir əzab vardır. (Nur surəsi, 11)**

Heç bir şübhə yoxdur ki, keçmiş dövrlərdə inananların qarşılaşdığı bu cür hadisələr onları narahat etmək, həvəsdən salmaq və batil dinlərinə geri döndərmək üçün inkarçıların əl atdığı üsullar olmuşdur. Lakin möminlər bu hücumların özləri üçün bir xeyirə çevriləcəyindən və sonda doğru yolda olduqlarının ortaya çıxacağından əmin şəkildə davranmışlar. Bu baxımdan, atılan iftiralara və fikri hücumlara qarşı həmişə ağıllı və hikmətli cavab vermişlər. Həmçinin səbir edib Allaha təvəkkül etmək lazım olduğunu və ancaq bu şəkildə müvəffəqiyyətə nail olacaqlarını unutmamışlar.

Keçmişdə yaşanan bu nümunələr kimi, bundan sonra da müsəlmanların hər an Allahın yaratdığı taleyə təslim olması və hər hadisənin xeyirlə baş verdiyini bilməsi çox önəmlidir. Bunu qavrayan mömin dünyanın ən böyük qazancından birinə qovuşar. Çünki Allah ayələrdə Ona təvəkkül edənlərə yardım edəcəyini və onların əsla köməksiz qalmayacağını belə bildirmişdir:

**Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz. Əgər O sizi zəlil edərsə, Ondan sonra kim sizə kömək edə bilər?! Ona görə də möminlər (yalnız) Allaha təvəkkül etsinlər! (Ali İmran surəsi, 160)**

## İnkarçıların fiziki hücumları

İnkarçı cəmiyyətlər tarix boyu iman edənlərin Allah yolunda olmasını, dini yaşamasını və təbliğ etməsini öz batil inancları yönündən təhlükəli görmüşlər. Buna görə də, çox vaxt inananları zəiflətmək üçün yuxarıda bəhs etdiyimiz kimi, iftira və istehza kimi üsullara əl atmışlar. Bunu yetərli görmədikdə isə təhdid, həbs etmə və yurdlarından zorla çıxartma kimi müxtəlif yollara baş vurmuşlar.

Bu insanlara qarşı mübarizədə möminlərin zamanla qarşılaşdığı pis davranışlar inkarçı cəmiyyətin azğınlığını göstərir. Buna baxmayaraq, möminlər bu hərəkətlərə xeyir gözü ilə baxmış və başlanğıcda pis görünən hadisələrdə Allahın çox gözəl nəticə yaradacağına iman etmişlər. Həqiqi yaxşılığa və xeyirə çatmağın çətin anlarda səbir və təvəkkül etməyi anlamışlar. Allah müsəlmanların bu gözəl xüsusiyyətini bir ayədə belə bildirir:

**Yaxşı əməl (ibadət vaxtı) üzünüzü şərqə və qərbə tərəf çevirməyiniz deyildir. Yaxşı əməl sahibləri o kəslərdir ki, Allaha, axirət gününə, mələklərə, kitablara və peyğəmbərlərə inanar, mal-dövlətini sevməsinə baxmayaraq onu qohum-əqrəba, yetimlər, yoxsullar, yolda qalanlar, dilənçilər və qulların azad olunması üçün sərf edər, namazı qılar, zəkatı verər, əhd etdikləri zaman əhdlərinə sadiq qalar, darlıqda, çətinlikdə, eləcə də döyüş vaxtı səbir edərlər. Onlar sadiqlərdir, əsil müttəqilərdir. (Bəqərə surəsi, 177)**

"Əhzab" surəsində bəhsi keçən Peyğəmbərimizin (s) dövründə baş vermiş bir hadisə bu gözəl hikmətin müəyyən hissəsini bizə göstərir. Həmin hadisədə inkarçılar tərəfindən hər yöndən mühasirəyə alınan möminlərin sınandığı və şiddətli sarsıntıya məruz qaldığı bildirilmişdir. Belə çətin imtahanda isə münafiqlər və qəlbində xəstəlik olanlar müxtəlif bəhanə ilə qaçaraq özlərini bəlli etmişlər.

Budur, belə bir çətin imtahan sayəsində möminlərin içində uzun zaman gizlənmiş qəlbində xəstəlik olanlarla, münafiqlər ortaya çıxmışdır. Gizli xərçəng xəstəliyinə bənzəyən həmin hiyləgər təşkilatlanma bu cür çətin

durumda dağılmışdır. Allahın rəhməti və dəstəyi möminlərin üzərində təcəlli etmişdir. Bu hadisədə münafiqlərin çirkin hərəkətinə baxmayaraq, möminlər hər çətinlikdə böyük xeyirlərin olduğunu görmüş, Allahın ayələri əsasında yaşadıqları üçün imanları güclənmiş və Allaha olan bağlılıqları artmışdır:

**Möminlər (düşmən) dəstələrini gördükləri zaman: "Bu, Allahın və Peyğəmbərinin bizə olan vədidir. Allah və Peyğəmbəri doğru söyləmişdir!" - dedilər. Bu (düşmən dəstələrinin gəlməsi) onların yalnız imanını və itaətini artırdı. (Əhzab surəsi, 22)**

Bu nümunədə göründüyü kimi, çətinlik möminlər üçün xeyirə çevrilərkən, bunu təqdir edə bilməyən qəlbi xəstə olanların daha da inkara düşməsinə səbəb olmuş və onların əleyhinə dönmüşdür. Bundan başqa, bu hadisədə möminlərin pislərdən ayrılması ilə yanaşı, onlara zərər verməyə çalışan inkarçıların bütün cəhdləri boşa çıxmışdır. “Əhzab” surəsində inkarçıların heç bir xeyirə çata bilmədən kin və qəzəblə geri döndükləri belə xəbər verilmişdir:

**Allah kafirləri qəzəbli olduqları bir halda püskürtdü. Onlar heç bir xeyir əldə edə bilmədilər. Döyüşdə Allah möminlərə kifayət etdi. Allah yenilməz qüvvət sahibidir, qüdrətlidir.**

**(Əhzab surəsi, 25)**

## Müsəlmanların hicrəti

Lazım gəldikdə bütün mal-mülkdən vaz keçib hicrət etmək Quranda bildirilən bir ibadətdir. Buna görə, Allah yolunda hicrət edən müsəlmanlar yurdlarını tərk etmək məcburiyyətində qaldıqda həmişə xeyirlə dəyərləndirmişlər. Çünki Quranda bildirildiyi kimi, hicrət edənlər Allahın rəhmətini ümid edənlərdən sayılır:

**Həqiqətən, iman gətirənlər və hicrət edib Allah yolunda cihad edənlər Allahın mərhəmətini ümid edirlər. Allah bağışlayandır, rəhm edəndir. (Bəqərə surəsi, 218)**

Cahilin məntiqi ilə düşündükdə. bir insanın cəmiyyətin təzyiqi ilə evindən, yurdundan çıxarılması və ya tanımadığı yerə sürgün edilməsi bütün həyatını alt-üst edən hadisədir. Lakin ilk-öncə bunu qeyd etmək lazımdır ki, Allahın dinini inkar edənlərin böyük hissəsindən xoşagəlməz qarşılıq görəcəkləri onsuz da inananlara əvvəldən bildirilmişdir.

Dolayısilə, müsəlmanların dinlərini tərk etməyə məcbur edilməsi Allahın ayələrinin təcəlli etdiyini göstərir. Bundan dolayı, hicrət edən və ya yurdlarından zorla çıxarılan möminlər hər dövrdə şövq və sevinc içində olmuşlar. Peyğəmbərimizin (s) dövründə yaşayan səhabələrin göstərdiyi üstün əxlaq və sarsılmaz təvəkkül bunun ən gözəl nümunələrindəndir.

Onlar Peyğəmbərimizə (s) tabe olarkən Allahın razılığını umduqları üçün hər cür çətinliyi gözə almışdılar. Müsəlmanların xeyiri üçün yurdlarından heç tərəddüd etmədən çıxmış, dünyalıq mallarını geridə qoymuşdular. Allah gözəl əxlaqın qarşılığı olaraq onlara sonsuz Cənnətini və rəhmətini vəd etmişdir. Şübhə yoxdur ki, Allahın vədi haqdır:

**Rəbbi də onların duasını qəbul etdi (və dedi:) "Kişi və ya qadın olmaqla sizdən heç bir əməl sahibinin əməlini puça çıxarmaram. Sizlər bir-birinizdənsiniz. Hicrət edən, öz yurdlarından çıxardılan, Mənim yolumda əziyyətə düçar olan və vuruşub öldürülənlərin Allah dərgahından bir mükafat olaraq, günahlarının üstünü örtəcəyəm və onları, (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah dərgahındadır. (Ali İmran surəsi, 195)**

Hicrət edən müsəlmanların axirətdəki sonsuz mükafatı ilə yanaşı, onlara dünyada da bolluq və gözəlliyin veriləcəyi Quranda belə müjdələnmişdir:

**Kim Allah yolunda hicrət edərsə, yer üzündə çoxlu sığınacaq və bolluq tapar. Kim Allah və Onun Peyğəmbəri yolunda hicrət etmək üçün evindən çıxar, sonra da ölümü çatarsa, onun mükafatını vermək Allaha aiddir. Allah bağışlayandır, rəhmlidir. (Nisa surəsi, 100)**

**Zülmə məruz qaldıqdan sonra Allah yolunda hicrət edənlərə gəlincə, Biz onları dünyada gözəl bir şəkildə məskunlaşdıracağıq. Axirət mükafatı isə şübhəsiz ki, daha böyükdür. Kaş (kafirlər, yaxud hicrət etməyə qarşı çıxanlar bunu) biləydilər! Onlar Rəbbinə təvəkkül edən səbirli kəslərdir. (Nəhl surəsi, 41-42)**

## Peyğəmbərimizin (s) aləmlərə nümunəvi təvəkkülü

Hz. Məhəmməd (s) bütün digər peyğəmbərlər kimi həyatı boyu bir çox çətinliklə qarşılaşmış, bu vəziyyətdə göstərdiyi səbir və təvəkküllə müsəlmanlara gözəl nümunə olmuşdur. Quranda bildirilən bir hadisə hz. Məhəmmədin (s) göstərdiyi üstün əxlaqı və Rəbbimizə olan sarsılmaz təvəkkülünü çox yaxşı vurğulayır.

Peyğəmbərimiz (s) Məkkədən çıxanda müşriklər onu öldürmək məqsədilə təqib etmişdilər. Peyğəmbərimiz (s) gizlənmək üçün mağaraya sığınmış, lakin müşriklər həmin mağaranın qapısına kimi gəlmişdilər. Bu çətin anda Peyğəmbərimiz (s) yanındakı mömin dostuna hüznə düşməməyi demiş və ona Allaha təvəkkül etməyi xatırlatmışdır. Bunu xəbər verən ayə belədir:

**Əgər siz ona (Peyğəmbərə) yardım etməsəniz, (bilin ki,) kafirlər ikinin ikincisini çıxartdıqları zaman Allah ona yardım etmişdi. İkisi mağarada ikən o, öz dostuna: "Kədərlənmə! Şübhəsiz ki, Allah bizimlə bərabərdir", - deyirdi. Beləcə, Allah**

**ona əminlik verdi, sizin görmədiyiniz əsgərlərlə (mələklərlə) onu dəstəklədi və kafirlərin sözünü alçaltdı. Allahın sözü isə ucadır. Allah yenilməz qüvvət və hikmət sahibidir.**

**(Tövbə surəsi, 40)**

Şübhəsiz, mübarək Peyğəmbərimizin (s) həyatı təhlükədə ikən qorxu və hüznə düşməməsinin, narahat olmamasının tək səbəbi Allaha olan güvəni və Onun taledə yaratdığı hadisələrin xeyir və gözəlliklə dolu olduğunu bilməsidir. Bunun nəticəsində heç bir zərər görmədən Mədinəyə çatmış və İslam tarixində çox önəmli dönüş olan hicrət baş vermişdir.

## Hz. Musanın üstün əxlaqı

Hz. Musanın tarix boyu yaşamış ən azğın insanlardan biri olan fironla mübarizəsi Quranda ətraflı şəkildə xəbər verilmişdir. Firon hz. Musanın Allahın dininin təbliğ etməsinə təhdid və hədə-qorxu ilə cavab vermişdir. Hz. Musanın inananları haqq dindən döndərməyə çalışan firona qarşı göstərdiyi üstün əxlaq və təvəkkül aləmlərə nümunəvi xüsusiyyət daşıyır. O dövrü Quran ayələri əsasında belə təsvir edə bilərik:

Bir tərəfdə firon ölkənin hakimi olan və görünüşdə bütün gücü əlində saxlayan şəxsdir. Digər tərəfdə isə yanında az adam olan hz. Musa vardır... Hadisələri xarici görünüşü ilə qiymətləndirən, haqlının deyil, güclünün qalib gələcəyini düşünən cahil məntiqi fironun bu mübarizədə qəti qələbə qazanacağını zənn edə bilər. Halbuki belə düşünənlər çox yanılır. Çünki Allah belə hökm etmişdir:

**Allah (lövhi-məhfuzda): "Mən və peyğəmbərlərim mütləq qalib gələcəyik!" - deyə yazmışdır. Allah güclüdür, qüdrətlidir.**
**(Mücadilə surəsi, 21)**

Allah peyğəmbərlərinə verdiyi vədini yerinə yetirmiş və hz. Musanı firondan üstün etmişdir. Onu qardaşı hz. Harun ilə və Özünün yardımı ilə dəstəkləmişdir. Bundan başqa, Allah hz. Musaya müxtəlif möcüzələr vermiş və onunla danışmaqla, onu digər insanlardan üstün etmişdir. Quranda insanlara ibrət üçün bildirilən bu mübarizə möminlərin əleyhinə kimi görünən bir vəziyyətin Allahın diləməsi ilə bir anda necə əksinə döndüyünü açıq şəkildə göstərir.

Həmin hadisələrdən biri belə olmuşdur: Firon və ordusu Misirdən qaçan hz. Musanı və yanındakı inananları həbs etmək üçün yola çıxmışdır. Firon onları uzaqdan görəndə inananların qarşısına dəniz çıxmışdır. Bu yerdə hz. Musanın sözləri diqqəti çox çəkir. Hz. Musanın önündə dəniz, arxasında isə firon ordusu olduğu halda, Allahın yardımının gələcəyinə güvənərək hərəkət etmiş və bu şəkildə, üstün əxlaqını ortaya qoymuşdur. Quranda bu hadisə belə xəbər verilir:

**Günəş üfüqdən qalxarkən (Firon və ordusu) onları izləməyə başladılar. İki dəstə bir-birini görüncə Musanın səhabələri: "Biz yaxalanacağıq!"– dedilər. (Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mənə doğru yol göstərəcəkdir!" Biz Musaya: "Əsanla dənizə vur!" (– deyə) vəhy etdik. (Dəniz) dərhal yarıldı və hər biri nəhəng bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bu (hekayətdə) bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi. Həqiqətən, sənin Rəbbin qüdrətlidir, rəhmlidir. (Şüəra surəsi, 60-68)**

Burada diqqət ediləcək olan, hz. Musanın bu çətin mübarizədə Allahın yardım etdiyini bilərək davranması, qarşılaşdığı hər hadisəni xeyirə yozması və ən çətin anda belə Allaha təvəkkül edib bağlılığını və sədaqətini göstərməsidir.

## Hz. Yusifin sarsılmaz itaəti

Möminlər üçün şər kimi görünən hadisələrin xeyirə çevrilməsi ilə bağlı Quranda verilən ən gözəl nümunələrdən biri də hz. Yusifin həyatıdır. Hz. Yusif uşaqlığından etibarən başına gələn hər hadisədə kamilliyi və Allaha olan bağlılığı ilə tanınır. Çətin anlarda təvəkküllü davranmaqla saleh möminlərə nümunə olmuşdur. Ona Allahı dost edən hz. Yusif hər şeyin dostundan gəldiyini bilib rahat olmuş və hər hadisədə xeyir axtarmışdır. Bu şəkildə, həyatı boyu qarşısına çıxan hər imtahanı fürsət bilmiş, hər an kamil və təvəkküllü xüsusiyyət göstərmişdir.

Hz. Yusifə birinci dəfə qardaşları haqsızlıq etmişdir. Hz. Yusifi qısqanan qardaşları onu bir quyuya atıb atasından və evindən uzaqlaşdırmışlar. Allah bir karvanı vəsilə edib hz. Yusifi bu hiylədən qurtarmışdır. Həmin karvan uşaq yaşındakı hz. Yusifi quyudan çıxarıb özləri ilə aparmışdır. Bundan sonra Yusif peyğəmbəri Misirin liderlərindən biri satın alıb evinə aparmışdır.

Hz. Yusifin gözəlliyinə heyran olan sahibinin arvadı ayədə bildirildiyinə görə onu yoldan çıxartmaq istəmişdir. Lakin hz. Yusif onu zinaya məcbur edən qadından qaçmışdır. Üstün əxlaqı olan hz. Yusif yenə başqa haqsızlıq görmüş, bu dəfə də qadının iftirasına məruz qalmışdır. Araşdırıldıqdan sonra hz. Yusifin günahsız olduğu sübut edilsə də, o, zindana atılmışdır:

**Sonra (vəzir və yanındakılar) dəlilləri görmələrinə baxmayaraq onu müəyyən bir müddətə qədər zindanda həbs etmək qərarına gəldilər. (Yusif surəsi, 35)**

Göründüyü kimi, hz. Yusif iffətini qoruduğu üçün iftiraya məruz qalmışdır. Bunun nəticəsində uzun müddət zindanda qalan hz. Yusif həbs həyatının hər cür çətinliyinə səbir edib Allaha təvəkkül etmişdir. Hz. Yusif zindanda uzun müddət qalmış, lakin Quranda keçdiyinə görə, çox itaətkar davranıb əxlaqı ilə möminlərə örnək olmuşdur. Hz. Yusif həyatı boyu göstərdiyi səbir, təvəkkül və hər şeyi xeyirə yozmağın qarşılığını ən gözəl şəkildə görmüşdür.

Allah bir çox hadisəni vəsilə edib hz. Yusifə dünyada böyük mülk və hökmdarlıq vermişdir. Hz. Yusifin yaşadığı bütün bu hadisələri xeyirə yozması və Rəbbimizə olan duası Quranda belə xəbər verilir:

**(Yusif) ata-anasını taxtın üzərinə oturtdu. Onlar (ata-anası və qardaşları) onun üçün səcdə etdilər. (Yusif) dedi: "Atacan! Bu, daha əvvəl gördüyüm yuxunun yozumudur. Rəbbim onu gerçəkləşdirdi. Həqiqətən, O mənə (çoxlu nemətlər) lütf etdi. Çünki məni zindandan çıxartdı və şeytan, mənimlə qardaşlarımın arasını vurduqdan sonra sizi səhradan (bura) gətirdi. Həqiqətən, Rəbbim dilədiyinə lütf edəndir. O həqiqətən, hər şeyi biləndir, hikmət sahibidir. Ey Rəbbim! Mənə mülkündən bir pay verdin və mənə yuxuların yozumunu öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünya və axirətdə mənim sahibimsən. Canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!" (Yusif surəsi, 100-101)**

Şübhəsiz, bu hekayə möminlərin səmimi şəkildə təvəkkül etdiklərinə görə mükafatlandırılmasına gözəl bir nümunədir. Saleh bir mömin, hz. Yusif kimi qarşılaşdığı hər hadisənin hikmət və xeyrini anlamağa çalışmalıdır. Allaha təvəkkül edib, Ona sığınıb bu elmi, bu anlayışı istəməlidir. Mömin unutmamalıdır ki, insanları hər gün rahatsız edən böyük-kiçik hər hadisə heç bir şəkildə möminin əleyhinə deyildir.

Bu, Allahın tale qanununa ziddir. Allah hər hadisəni mütləq möminin lehinə yaradır. Allah möminin qəlbinə hadisənin xeyir və hikmətini ilham edə bilər ki, bu, böyük nemətdir. Lakin Allah ilham etməsə də, müsəlman səbir edib: "Mütləq xeyir vardır", -deməlidir. Çünki bu, Allahın razı olduğu əməldir.

# ALLAHIN İNANANLARA VERDİYİ SÖZ VƏ KÖMƏYİ

Hər dövrdə yer üzündəki insanların çoxunu "**...lakin insanların çoxu inanmır**" (Rəd surəsi, 1) ayəsində bildirildiyi kimi inkarçılar yaratmışdır. İnkarçılar həmişə müsəlmanlara qarşı sayca üstün olmuşdur. Buna görə də bu ağılsız və bəsirətsiz insanlar özlərinin daima doğru yolda olduqlarını zənn edirlər. Maddi güclərinin və saylarının inananlardan çox olması onlara etibar hissi verir. Buna görə də, hadisələri xarici görünüşünə görə qiymətləndirən cahil insanları özlərinin üstün olduğundan tam əmin şəkildə hərəkət edirlər. Lakin bilmədikləri böyük bir həqiqət vardır ki, o da Allahın möminlərə verdiyi sözü və köməyidir:

**... Allah heç vaxt kafirlərə möminlərin əleyhinə olan bir yol göstərməz! (Nisa surəsi, 141)**

Allah yuxarıdakı ayədə diqqət çəkdiyi kimi hər şeyi möminlərin lehinə edir və onları müxtəlif yollarla dəstəkləyir. "İnşirah" surəsində müsəlmana hər çətinliklə bərabər, asanlığın da yaradıldığı sirri verilir. Xəstəliyi yaradan Allahın şəfanı da yaratdığı kimi, hər çətinlik də asanlıq ilə bərabər meydana gəlir. Bu həqiqət belə xəbər verilir:

**Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr!**
**Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (İnşirah surəsi, 5-6)**

Allahın dəstək və köməyini ancaq möminlər bilirlər. Onlar həyatı boyu nə ilə qarşılaşsalar da, Allahın daima yardımçı olduğunu bilir və buna görə də hüzurlu olurlar. Allah bəndələrinə belə vəd etmişdir:

**Allah sizin düşmənlərinizi çox yaxşı tanıyır. Dost olaraq da, yardımçı olaraq da Allah kifayətdir. (Nisa surəsi, 45)**

İnkarçılar və münafiqlər isə bir çox şeydən qorxurlar. Allaha iman etmədiklərindən, Ona şirk qoşduqlarından və hər hadisə və varlığı başıboş zənn etdiklərinə görə həmişə qorxu içində yaşayırlar. Həmin bu qorxu Allahın möminlərə qarşı mücadilə edənlərin qəlbinə saldığı qorxudur:

**O zaman Rəbbin mələklərə: "Mən sizinləyəm! İman gətirənləri gücləndirin. Mən kafirlərin qəlbinə qorxu salacağam..."**

**(Ənfal surəsi, 12)**

Allahın köməyi və dəstəyi müsəlmanın bütün həyatını əhatə edir. Tarix boyu Allah inananlara müxtəlif yollarla yardım etmişdir. Bəzən peyğəmbərlərinə möcüzə vermiş, bəzən müsəlmanları görünməyən ordu və mələklərlə, hətta təbiət hadisələri ilə dəstəkləmiş, bəzən də imkansız görünən hadisələrin həyata keçməsini yaratmışdır. Quranda verilən bu nümunələrdən bəziləri belədir:

**Ey iman gətirənlər! Allahın sizə göstərdiyi iltifatını xatırlayın. O zaman ki, (düşmən) ordusu sizin üstünüzə (hücuma) keçmişdi, Biz də onların üstünə külək və görmədiyiniz qoşunlar göndərmişdik. Allah sizin nə etdiyinizi görür. (Əhzab surəsi, 9)**

**O vaxt siz Rəbbinizdən kömək diləyirdiniz. O da: "Mən sizə bir-birinin ardınca gələn min mələklə yardım edəcəyəm"– deyə duanızı qəbul etmişdi. (Ənfal surəsi, 9)**

**Qarşı-qarşıya gələn iki dəstədə sizin üçün bir ibrət var idi. Dəstələrdən biri Allah yolunda vuruşurdu, digəri isə kafirlər idi. Onlar kafirlərin sayca iki qat artıq olduqlarını öz gözləri ilə görürdülər. Allah istədiyi kəsi Öz köməyi ilə qüvvətləndirir.**

**Həqiqətən, bunda bəsirət sahibləri üçün bir ibrət vardır. (Ali İmran surəsi, 13)**

## Möminlərə qarşı qurulan tələlərin hamısı əvvəldən pozulmuşdur

İnkarçılar möminlərə qarşı mücadilə zamanı hər cür hiyləgər üsula əl atırlar. Bunlardan biri də möminlərin əleyhinə birləşib onlara qarşı müxtəlif tələlər qurmalarıdır. Həm sayca çox olduqlarından, həm də tələləri gizli qurduqlarından dolayı müvəffəqiyyətli olacaqlarını düşünən inkarçılar plan qurarkən iki nəfərdən üçüncüsünün və üç nəfərdən dördüncüsünün uca Allah olduğunu unudurlar. Allahın insanlara şah damarından daha yaxın olduğundan isə tamamilə bixəbərdirlər. Halbuki gizlətsələr də, Allah qəlbdə olanları biləndir. İnkarçıların möminlərin əleyhinə ağıllarından keçirdiyi hər fikri, qurduqları hər planı Allah ən incəliyinə kimi bilir.

Ən əhəmiyyətlisi isə odur ki, hər şeyi bilən Allah Quranda inkarçıların qurduğu tələlərin hamısının öncədən pozulmuş olduğunu xəbər vermişdir. Nə qədər hiyləgər olursa-olsun, möminlərin əleyhinə qurulan tələləri hər şeyin yaradıcısı olan Allahın pozacağı Quranda belə bildirilir:

**... Həqiqətən də Allah kafirlərin hiyləsini zəiflədər.**

**(Ənfal surəsi, 18)**

**Öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allaha bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir. (İbrahim surəsi, 46)**

Bununla yanaşı, Allah qurulan tələlərin saleh qullarına zərər verə bilməyəcəyini, əksinə, inkarçıların ona dönəcəyini xəbər vermişdir:

**... Pis iş yalnız öz sahibini bürüyər. Onlar əvvəlkilərin qanunundan (onlara tətbiq etdiyimizdən) başqasınımı gözləyirlər?! Allahın qanununda heç bir təbəddülat tapa bilməzsən! Allahın qanununda heç bir dəyişiklik də görə bilməzsən! (Fatir surəsi, 43)**

Burada önəmli bir mövzunu qeyd etmək lazımdır: İnananlar Allahın bu vədinə (inkarçıların tələlərini puç etməsinə) tam olaraq inanırlar. Allahın daima onlara kömək etdiyini bilir və buna görə həmişə təvəkkül edirlər. Əvvəldən etibarən üzərində dayandığımız kimi, mütəvəkkil (ümid edən) olduqlarına görə hər hadisənin xeyir və hikmətini görür, görməsələr də, mütləq onların xeyrinə bitəcəyinə qətiyyətlə inanırlar.

## Allahın tərəfdarları qalib gələcək

Müsəlmanlar şər kimi görünən hadisələrə xeyirlə baxıb Allahı vəkil etdiklərinin qarşılığını həmişə ən gözəl şəkildə almışlar. Ayədə belə buyurulur:

**Bunlar o kimsələrdir ki, insanlar onlara: "Həqiqətən, (düşməniniz olan) insanlar sizə qarşı (əsgər) toplayıblar. Onlardan qorxun!" - dedikləri zaman bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl vəkildir!" - dedilər. Beləcə, Allahın neməti və lütfü sayəsində onlara heç bir zərər toxunmadan geri döndülər və Allahın rizasına uymuş oldular. Allah böyük lütf sahibidir. (Ali İmran surəsi, 173-174)**

Bunu da xatırlatmaq lazımdır ki, bəzən inkarçılar zahiri görünüşdə üstün gəlmiş kimi görünürlər. Halbuki bu, sadəcə Allahın inananları imtahan etməsidir. Bu minvalla, saleh möminlərlə ağır davrananlar bir-birindən ayrılır. Təvəkkül edən, səbir edən və hadisələrə xeyirlə baxan müsəlmanlar, heç şübhəsiz, Allaha olan sədaqətini açıq şəkildə ortaya qoyurlar. Buna görə də

dünya və axirətdə Allahın rizasını qazanıb qalib gələnlər hər zaman möminlərdir:

**Kim Allahı, Peyğəmbərini və iman gətirənləri dost tutarsa, bilsin ki, həqiqətən, qalib gələcək olan məhz Allahın tərəfdarlarıdır. (Maidə surəsi, 56)**

# NƏTİCƏ

Möminlər hər hadisəni ən incəliyinə qədər Allahın yaratdığını və hamısının taledə əvvəldən təqdir edildiyini bilərək həyatı itaətlə keçirirlər. Əlbəttə, onlar da hər zaman bir çox çətinlik və imtahanlarla qarşılaşırlar. Lakin "kaş belə olaydı", "belə etsəydim, daha xeyirli olardı" kimi sözlər deməz və boş xəyallara düşməzlər. Baş verənlərdə bəlkə də heç bilməyəcəkləri hikmət və xeyirlərin olduğuna tam iman edirlər. Beləliklə, çətin görünən vəziyyətdə də hüzurlu həyat sürürlər.

Ancaq bu sirri bilməyən inkarçılar şər kimi görünən böyük-kiçik hər hadisədə sıxıntı keçirirlər. Həyatda çox ümidsiz və bədbəxt olurlar. Halbuki insan yaradılışına uyğun olaraq hüzur və rahatlıq içində yaşamalı olan varlıqdır. Çünki sıxıntı, əsəb və hüzn fiziki və mənəvi yöndən insana həddindən artıq zərər verir. Allaha güvənməyən və hər hadisəyə xeyirlə baxmayan insanı sıxıntı, hüzn və aqressivlik bürüyür. Hər zaman gələcək qorxusu, ölüm qorxusu, xəstəlik qorxusu, mal itkisi kimi qorxularla yaşayırlar.

İnsanın qurtuluşu yalnız baş verənləri Allahın xeyir və hikmətlə yaratdığını bilərək yaşamasındadır. Mömin istisnasız qarşılaşdığı hər hadisəni Allahın xeyir və hikmətlə yaratdığını bilərsə, Allaha həqiqi mənada təvəkkül edər. Dözmək deyil, gözəl şəkildə səbir edərsə, qulluğa uyğun davranmış olar. Güvən, hüzur və güc Allahın diləməsi ilədir. Dua və təvəkkül etməklə hər şeyi Allahdan gözləmək möminin xüsusiyyətidir.

Mömin bu dünyada Cənnətin qapısında gözləyərkən müxtəlif hadisələrlə qarşılaşır və imtahan edilir. Mömin bu hadisələrin axışında Allahın rəhmətini, rizasını və Cənnəti qazandıran işlər görür və Allahdan qorxub Cəhənnəmə düşməkdən ehtiyat edir.

Allah Özündən qorxub çəkinən bəndələrin taleyində təqdir edilmiş və hökmən baş verəcək bir hadisəni ayədə belə xəbər vermişdir:

**Rəbbindən qorxanlar isə dəstə-dəstə cənnətə gətiriləcəklər. Nəhayət, onlar ora çatdıqları zaman qapıları açılacaq və gözətçiləri onlara: "Sizə salam olsun! Xoş gəldiniz! Əbədi qalmaq üzrə bura daxil olun!" - deyəcəklər. Cənnətliklər: "Bizə verdiyi vədinə sadiq qalan və bizi cənnətdə məskunlaşdığımız**

**yerin varisi edən Allaha həmd olsun! Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!" - deyəcəklər. Mələklərin də Rəbbini həmd ilə təsbeh edərək ərşi əhatə etdiklərini görəcəksən. Onların arasında ədalətlə hökm olunacaq və: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!" – deyiləcəkdir. (Zumər surəsi, 73-75)**

# ƏLAVƏ BÖLMƏ:
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda

dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində

təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-ona əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın

öz-ona meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-ona meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı**

**dəyişikliklər baş verədikcə təbii seçmə heç bir şey edə bilməz"**, – demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki

milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

# İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- *Australopithecus*
- *Homo habilis*
- *Homo erectus*
- *Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif

bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir hissəsi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin

ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri,

gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü?

Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi

sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin,

balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər.

Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri

görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!**

**(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin

inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)**

# ARXA CİLD

İnsanın gözlərini dünyaya açdığı andan etibarən eşitdiyi hər sözü, ünsiyyətdə olduğu hər detalı, qarşılaşdığı hər hadisəni sonsuz ağıl, qüvvət və ədalət sahibi olan Allah yaradar.

"**Heç şübhəsiz, Biz hər şeyi tale ilə yaratdıq.**" (Qəmər surəsi, 49) ayəsində də bildirildiyi kimi, bu hadisələr plan və sonsuz hikmət istiqamətində yaradılmaqdadır.

Bu vəziyyətdə insanın edəcəyi şey, Allahın sonsuz ağılına və sonsuz hikmətlərlə dolu taleyə təslim olmaqdır. İmanı qəlbinə tam olaraq yerləşdirmiş və taleyə tam olaraq təslim olmuş bir mömin, gün ərzində qarşılaşdığı heç bir hadisə qarşısında kədərlənməz, qorxuya qapılmaz, ümidsizliyə düşməz.

Təvəkkülsüzlük, mənfi ruh halı, kədər, ümidsizlik, pessimizm möminə yaraşmayan, şiddətlə çəkinilməli və insana axirətdə utanc verəcək qəflət hallarıdır. Allaha iman edən insan tərslik kimi görünən bir hadisə ilə qarşılaşdıqda, əslində bunun onun üçün mütləq ən xeyirlisi olduğunu bilər. Çünki Bəqərə surəsinin 216-cı ayəsində Allah; "**...Bəlkə də xoşlanmadığınız bir şey sizin üçün xeyirli, xoşlandığınız bir şey isə sizin üçün zərərlidir. Allah bilir, ancaq siz bilməzsiniz.**" şəklində buyurmuşdur. Bu həqiqəti qavrayan mömin üçün kəsilməz iman sevinci həyat xüsusiyyəti halına gəlir.

Allahın təyin etdiyi tale qüsursuzdur. Milyonlarla hadisədən ibarət olan bu bütündə, xeyir gözüylə baxan hər insan üçün yalnız gözəlliklər, xeyirlər və hikmətlər vardır.

**YAZIÇI HAQQINDA**: Harun Yəhya təxəllüsünü istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan oldu. 1980-ci illərdən bu yana, imani, elmi və siyasi mövzularda bir çox əsər hazırladı. Bunların yanında, yazarın təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və Darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri var.

Yazarın bütün əsərlərindəki ortaq hədəf, Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğın tətbiqlərini gözlər önünə sərməkdir. Necə ki, yazıçnın bu

günə qədər 76 ayrı dilə tərcümə edilən 300-dən çox əsəri, dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən izlənilməkdədir.

Harun Yəhya Külliyyatı, (Allahın icazəsi ilə) XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur və sülhə, düzgünlük və ədalətə, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.